

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azad torpaqlarımız: Prezident Şuşaya 3 gündə 30 ilin töhfəsini verdi




8

# Britaniya jurnalı:

## Azərbaycan Cənubi Qafqazda davamlı sülhün təmin edilməsində israrlıdır!



4

Today, Azerbaijan, led by President Ilham Aliyev, deepens and promotes regional integration and cooperative initiatives, widely supported by the international community. Having restored its territorial integrity after three decades of conflict with neighbouring Armenia, Azerbaijan insists on signing a peace agreement and normalisation to ensure a lasting peace for the South Caucasus. In a world full of violent conflict and volatility, President Aliyev's agenda for peace is a basis for the prosperous and secure future for our entire region.


SƏS

№ 096 (6779)

2 iyun 2023-cü il.
Qiymәti 60 qәpik


# Ermənistan-Azərbaycan danışıqları: yenə ötür-ötür oyunu



2

### Samir Nuriyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb



4

### Təqaüd yaşının artırılması hansı problem yarada bilər?



12

### "Paşinyan Moskvanı lap boğaza yığıb"



15



### Yeniyetmələrin itkin düşməsinin səbəbi nədir?

14

### Modernləşən hava nəqliyyatımız



7

BAXIŞ BUCAĞI



# Ermənistan-Azərbaycan danışıqları: yenə ötür-ötür oyunu



**İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Moldova Respublikasının Prezidenti Maya Sandu Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşılayıb, daha sonra toplantı iştirakçıları birgə foto çəkdiriblər. Dünən Moldovanın paytaxtı Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə də görüşü olub.**

Dünən həmçinin Moldovanın paytaxtı Kişinyovda "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı çərçivəsində enerji təhlükəsizliyi məsələsinə həsr edilmiş dəyirmi masa keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında üçtərəfli qeyri-rəsmi görüş keçirilib. Görüşə daha sonra Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron da qoşulub.

Bundan sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel qeyri-rəsmi görüşün yekunlarına dair mətbuata açıqlama verib. Şarl Mişel açıqlamasında deyib:

- Biz indicə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Olaf Şolts ilə çox yaxşı görüş keçirdik. Bizim may ayında Brüsseldə müzakirə etdiyimiz məsələləri nəzərdən keçirmək, əlaqələndirmə, təhlükəsizlik, sərhədlərin delimitasiyası, sülh sazişi ilə bağlı müzakirə aparmaq imkanımız oldu. Bu görüş iyulun 21-də Brüsseldə keçiriləcək növbəti toplantıya çox yaxşı hazırlıq oldu. Bu o deməkdir ki, biz çox gərgin çalışırıq. Biz münasibətlərin normallaşdırılması istiqamətində bütün müsbət səyləri dəstəkləmək niyyətindəyik və həmçinin bəyan etdik ki, Prezident Əliyevi, Baş nazir Paşinyanı, Kansler Şoltsu və Prezident Makronu "Avropa siyasi birliyi"nin İspaniyada keçiriləcək növbəti toplantısı çərçivəsində yenidən görüşə dəvət etmək niyyətindəyik. Bu o deməkdir ki, biz Avropa İttifaqı tərəfindən münasibətlərin normallaşdırılması istiqamətində daha çox irəliləyişə nail olmağa yardım etmək üçün əlimizdən gələni edəcəyik.

## Moldova görüşünə qədər isə...

Moldovanın paytaxtı Kişinyovda Avropa Siyasi Birliyinin ikinci sammiti öz işinə başlayıb. Hər ölkə bu sammitdən öz nəsibini alacağı kimi, Azərbaycan da bu görüşə daha çox Ermənistanla sülh müqaviləsi ətrafında gedən danışıqların məhsuldarlığını artırmaq məqsədi ilə qatılıb. Rəsmi Bakının bir niyyəti var, regionda - Cənubi Qfqazda sülhü və təhlükəsizliyi bərpa etmək. Ermənistanla bağlanacaq sülh müqaviləsi isə bu istəyin, arzunun bir hissəsi ola bilər. Nəzərə alsaq ki, bölgədə sülhü istəməyən regional və qeyri-regional güclər kifayət qədərdir, Azərbaycanın narahatlığını başa düşmək olar. Ermənistanla sülhün bağlanması, iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi isə sadalananlar fonunda bir o qədər də önəmli deyil. Əgər Ermənistan sülh istəmirsə istəməsin, sərhədlərdə demarkasiya, delimitasiya prosesi aparmaq istəmirsə etməsin. Ermənistan üzərindən hibrid müharibəsi aparmaq, Azərbaycana qarşı erməni adlı maşadan istifadə etmək istəyən gücləri neytrallaşdırmaq üçün sülh müqaviləsi lazımdır.

Sülhün bərqərar olması Ermənistanın və onun arxasında duran qüvvələrin neytrallaşdırılması demək olacaq, region kənar qüvvələrdən təmizlənəcək, kommunikasiyalar açılacaq, loqistika mexanizmi işə düşəcək, Qərbdən Şərqə, Şimaldan Cənuba uzanan dəhlizlər region ölkələrinin dünyaya çıxış imkanlarını təmin edəcək, inkişaf dinamikasını artıracaq. Ermənistan rəhbərliyi, ocümlədən ermənilər anlamalıdırlar ki, bu mənzərənin yaranması bir ölkə kimi onların da işinə yarayacaq. Amma indi özlərini Ermənistanın arxasında dayanan qüvvə kimi təqdim edən ölkələrin əsl niyyəti Ermənistana son 30 ildə vurduqları ziyanı bundan sonra da davam etdirməkdir. Kimsə bizim Ermənistanın və ermənilərin taleyinə yandığımızı düşünər, amma bu belə deyil. El arasında bir deyim var, çaqqal tələyə düşəndə yanyörəsini, hətta öz qolunu da gəmirər. Ermənilər SSRİ-nin dağılmasından istifadə edib öz müqəddaratını təyin edəndə indikindən də kasıb vəziyyətdə idi. Və bəzi ölkələrin Azərbaycandan pay qopartmaq, iqtisadi müqavilələrdə üstünlük əldə etmək üçün "erməni kartı"ndan məharətlə istifadə edəcəyi sonrakı hadisələrdə də öz təsdiqini tapdı. Ermənistanın ağzına bir tikə sümük atan və əvəzində kasıb erməni ölkəsini Azərbaycanın üzərinə qısqırtmağı bacaran həmin güclər bu murdar xislətlərini düz 30 ildir ki, yeritməkdədirlər.

Bəli, Azərbaycan ölkəmiz ətrafında süni şəkildə yaradılmış düşmənçiliyin axırına çıxmaq, Qərbin, Şimalın, Cənubun "Cənubi Qafqaz siyasəti"ni puça çıxarmaq istəyir. Erməniləri Azərbaycanın sülh təkliflərinə biganə qalmağa vadar edən də İrəvanın "böyük qardaş"ları qarşısında götürdüyü öhdəliklərdir. Ona görə, danışıqlar zamanı həmin güclərin də iştirak etməsinə Bakının icazə verməsinə səbəb də budur. Təsadüfi deyil ki, Ermənistanla Azərbaycan arasında gedən müzakirələrin aparılması üçün artıq 3 platforma formalaşıb, Moskva, Vaşinqton və Brüssel. Hər üç platformanın təşkilatçılarının bu münaqişənin yaranmasında və indiki şəkil almasında birbaşa və dolayısı ilə əlləri var. Bu münaqişəni özləri doğub, özləri bələyib və indi də  Əgər həmin vasitəçilərin əli ilə sülh müqaviləsi imzalanarsa, cümləni onun rənginə uyğun tamamlaya bilərik. Hələlik isə bu görüşlərdən növbətisi Moldovanın paytaxtında keçirilib.

Ardı Səh. 3

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir: "Balaca soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, bütün balalara möhkəm cansağlığı və xoşbəxt həyat arzulayıram!".



# Ermənistan-Azərbaycan danışıqları: yenə ötür-ötür oyunu

Əvvəli Səh. 2

## İrəvan Bakı ilə sülh müqaviləsi imzalamaqdan hələ çox uzaqdır



Görüşün keçirilmə ərəfəsində Ermənistandan təxribatçı açıqlamalar gəlib. Hələ İlham Əliyevlə Nikol Paşinyanın görüşünə iki saat qalmış Ermənistan parlamentin spikeri deyib ki, Ermənistan tərəfi üçün sülh müqaviləsinin təminatlı olması vacibdir: "Azərbaycan Qarabağın erməni əhalisi ilə danışmasa, yara sağalmayacaq və bunun gələcəkdə öz nəticələri olacaq". Alen Simonyan deyib ki, əgər dialoq olmasa, məsələ Azərbaycan tərəfinin mövqeyi ilə həll olunsa soyqırımı baş verə bilər, biz buna yol verə bilmərik. Bu məsələ Azərbaycan üçün də son dərəcə vacibdir. Parlamentin sədri hətta, Azərbaycanı 10 noyabr bəyanatının demək olar ki, bütün bəndlərini pozmaqda ittiham edib. Halbuki, həmin bəyanatın 4-cü bəndində yazılan "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir" cümləsi kifayət edir ki, tərəflərdən hansı razılaşmaya əməl etmir.



Əslində spikerin bu açıqlamasının sadə yozumu budur ki, İrəvan sülhə gəlməkdə zorlanır, yaxud çətinlik çəkir, maksimalist düşüncəli erməni cəmiyyətinin qəzəbindən qorxur. Bir el məsəlini də Ermənistan təhbərliyinin yadına salmaqda bəlkə də hər birimizin xeyrinə olar, "zəhər nə qədər tünd olsa, qabını çatladar".

Bu, Kişinyov sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Ermənistanın baş naziri Nikol Paşinyan və Almaniya kansleri Olaf Şolz arasında beştərəfli görüşdən qabaq Ermənistan rəhbərliyinin növbəti təxribatçı çıxışıdır. Moskva görüşü keçirildiyi gün isə Ermənistan ordusunun diversiya qrupu Zəngilan rayonu istiqamətində şərti dövlət sərhədini pozub və nəticədə iki sərhəd pozucusu ələ keçirilib.

Xatırladaq ki, ötən il oktyabrın 6-da Praqada Avropa Siyasi Birliyinin birinci sammitindən sonra Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa prezidenti Emmanuel Makron, Avropa Şurasının prezidenti Şarl Mişel və Azərbaycan Prezidenti İlham Əliyev arasında dördtərəfli görüş keçirilib. Daha sonra Paşinyanla Türkiyə prezidenti arasında görüş olub. Ermənistan Xarici İşlər Nazirliyi iyunun 1-də Kişinyovda Azərbaycanla sülh müqaviləsinin imzalana biləcəyi ilə bağlı məlumatı təkzib edib. Bundan əvvəl Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva sülh ehtimalı barədə açıqlama vermişdi. Vaşinqton görüşü vaxtı Ermənistan silahlıları Azərbaycan ordusunun iki hərbçisini oğurlayaraq sonradan onları "diversant" kimi, hətta mühavizəçini qətlə yetirən cani kimi təqdim etdi. Bütün norma və prinsiplərin daim əlehinə gedən İrəvan bununla da kifayətlənməyib qondarma "məhkəmə" keçirərək hərbiçilərimizə uzunmüddətli həbs cəzası verdi.



## Oğru İrəvandan "oğurluq" damğası

Rəsmi Bakının erməni diversantları ilə bağlı addımlarına isə İrəvan "oğurluq" damğası vurmağa çalışır. Beləliklə, Ermənistanın əsas dərdi sülhdən yayınmaqdır. Baş verənlərin Azərbaycan versiyası fərqli görünür. Hərbçilər Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun tərkibində dövlət sərhədini pozublar. Azərbaycan Baş Prokurorluğundan verilən məlumata görə, onların içəri daxil olmasında məqsəd insanları öldürmək, maddi ziyan vurmaq, azərbaycanlı əhali arasında çaxnaşma yaratmaq, habelə Zəngilan rayonunun Rəzdərə kəndində sərhəd qoşunlarına qarşı terror aktı təşkil etmək olub. Məlumatda vurğulanır ki, Ermənistan Silahlı Qüvvələrinin həbs edilən hərbçiləri cinayət işi üzrə təqsirləndirilir və məhkəmənin qərarı ilə onlar barəsində həbs-qətimkan tədbiri seçilib. Bu və ya digər şəkildə Hovakimyanın və Qazaryanın taleyi açıq şəkildə Ermənistan və Azərbaycan tərəfləri arasında danışıqlar zamanı həll olunacaq. Necə ki, indiyə qədər oxşar hallarda belə olub.

Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel isə görüşdən əvvəl ümid etdiyini bildirib ki, Azərbaycan və Ermənistan Moldovada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçiriləcək görüşdə münasibətləri normallaşdırmaq üçün siyasi iradələrini təsdiq edəcəklər: "Ümid edirəm ki, bu, iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün ümumi siyasi iradəni təsdiqləmək üçün bir fürsət olacaq".

Bu arada regionda hadisələr həm Moskvanın, həm Qərbin sayəsində Azərbaycan və Ermənistan arasında tezliklə sülh müqaviləsinin imzalanması ilə bağlı optimist proqnozlarının əksinə inkişaf edir. Xüsusilə, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan bu sazişin iyunun 1-də Kişinyovda imzalanması ilə bağlı sorğuya cavab olaraq deyib ki, Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsi və xüsusən də saziş ətrafında müzakirələr gedir: "Dəfələrlə qeyd etdiyimiz kimi, əsas məsələlər həll olunanda Ermənistan tərəfi sazişi imzalamağa hazır olacaq. İnanırıq ki, iyunun 1-də Kişinyovda Avropa Siyasi Birliyinin sammiti çərçivəsində planlaşdırılan görüş zamanı və ondan sonra onlarla bağlı müzakirələr davam etdiriləcək. Bu sazişin imzalanması Kişinyovda keçiriləcək görüşün gündəliyinə daxil edilməyib".

Azərbaycan Prezidenti İlham Əliyev bazar günü Laçın rayonunun sakinləri ilə görüşündə deyib: "İndi Ermənistan ərazi bütövlüyümüzü tanıdığına görə, sülh müqaviləsinə faktiki olaraq heç bir ciddi maneə yoxdur. Əminəm ki, Ermənistan mövqeyini bir daha dəyişməsə, yaxın vaxtlarda sülh müqaviləsi imzalana bilər".

Sanki buna cavab olaraq Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ankara ilə İrəvan arasında münasibətlərdə müsbət irəliləyişlər yalnız Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalandıqdan sonra ola bilər. Nazir vurğulayıb ki, Ankara Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bəyanatını alqışlayır. Lakin bununla yanaşı, Türkiyənin Ermənistana qarşı hələ də müəyyən iddiaları var, onun paytaxtında bu yaxınlarda, Osmanlı dönəminin öndə gedən isimlərini qətlə yetirən Nemesis təşkilatının üzvlərinə 2017-ci ilin birinci yarısında abidə ucaldılması azacıq münasibətlərin də üstündən xətt çəkib. Ankara bu abidənin açılmasını səhv adlandırsa da, İrəvan hələ də buraxdığı səhvi düzəltməyib.

Moldovanın Kişinyovdan 45 kilometr aralıda yerləşən Bulboaca kəndində Azərbaycan Prezidenti, Fransa prezidenti, Almaniya kansleri, Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş nazirinin beştərəfli görüşü baş tutub. İrəvan bəyan edib ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması planlaşdırılmır.

Ermənistan bəyan edib ki, danışıqların aparıldığı bütün mərkəzlər sazişin həyata keçirilməsinin təminatçısı olmağa hazırdır. Lakin Ermənistan tərəfi üçün bu qarantın razılaşmalara əməl olunması məsələsində ardıcıl olması vacibdir. İrəvan Rusiyanın zəmanətini qəbul etmir və bunu indiyədək baş verən hadisələrlə izah edir. Bildirilib ki, söhbət qarantın daha aydın və başa düşülən mexanizmlərindən gedir. Bir ölkə zamin qismində çıxış etsə, daha yaxşı olar. Təcrübə isə göstərir ki, bir neçə ölkə prosesə cəlb edildikdə, ya onların arasındakı münaqişə səmərəli işə mane olur, ya da məsuliyyəti bir-birinin üzərinə atmağa çalışırlar.

Sülhün yaranma ehtimalı olsa da, hələlik üfüqdə sozalır. Səbəb yenə Ermənistan və müharibəyə köklənmiş ermənilərdir.

***V.VƏLİYEV***

# “Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır”

*“İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb*

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 126-cı kitabı çapdan çıxıb. Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin fevral-mart aylarını əhatə edir. Fevral ayının mühüm hadisələrindən biri Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya səfəri olub. Dövlətimizin başçısı konfrans çərçivəsində ”Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” mövzusunda plenar iclasda çıxışı zamanı Qarabağ ermənilərinin təhlükəsizliyi ilə bağlı Azərbaycanın mövqeyini bir daha bəyan edib: ”Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq”.

Prezident İlham Əliyev konfrans çərçivəsində, həmçinin ”Boru arzuları: gələcəyə uyğun enerji təhlükəsizliyi” mövzusunda dəyirmi masada iştirak edib, Münxendə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmidt, İsrail Dövlətinin müdafiə naziri Yoav Qalant, ATƏT-in Baş katibi xanım Helqa Maria Şmid və başqaları ilə görüşlər keçirib, xarici və Azərbaycan telekanallarına müsahibələr verib. Bütün bu görüşlər haqqında informasiyalarla və müsahibələrin mətnləri ilə yeni kitabda tanış olmaq mümkündür.




Yeni kitaba Prezident İlham Əliyevin digər mühüm tədbirdə - Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Ankarada ”Fəlakət - fövqəladə halların idarə edilməsi və humanitar yardım” mövzusunda keçirilən Fövqəladə Zirvə görüşündəki çıxışının mətni daxil edilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşündə Azərbaycan və Türkiyənin hər zaman bir-birinin yanında olduğu vurğulanıb, Vətən müharibəsində qardaş ölkənin siyasi və mənəvi dəstəyi minnətdarlıq hissi ilə xatırlanıb, hazırda münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyi qeyd edilib. Dövlətimizin başçısı son 20 ildə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyənin böyük inkişaf yolu keçdiyini də diqqətə çatdırıb, dağıdıcı zəlzələnin nəticələrinin uğurla aradan qaldırılacağına əminliyini bildirib.

Sitat: Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaqdır.

Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir. 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçib, dünyada söz sahibi olub, güc mərkəzinə çevrilib. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

Çoxcildliyin 126-cı kitabına Prezident İlham Əliyevin mart ayında Almaniyaya işgüzar səfərinə aid materiallar, o cümlədən Prezident Frank-Valter Ştaynmayer, Kansler Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşləri haqqında informasiyalar, Olaf Şolts ilə birlikdə mətbuata bəyanatlarının mətnləri daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevlə videokonfrans formatında görüşünə, Albaniya Prezidenti Bayram Beqay ilə görüşünə dair materiallarla da tanış ola bilər.

Yeni nəşrdə Prezident İlham Əliyevin ”Qoşulmama Hərəkatının ”COVID-19”a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə çıxışının mətni, Azərbaycana səfər etmiş İslam İnkişaf Bankı qrupunun Prezidenti Məhəmməd Süleyman Əl-Casir, Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes, Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Mariano Qrossi, BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Anxel Moratinos ilə görüşləri, müxtəlif ölkələrin yüksəkvəzifəli nümayəndələrini qəbul etməsi haqqında informasiyalar verilib.

Prezident İlham Əliyev martın 18-də Tərtər rayonuna səfər edib. Səfər çərçivəsində Suqovuşan qəsəbəsində yaşayış məhəlləsinin təməlini qoyub, qəsəbə tam orta məktəbində yaradılan şəraitlə, Suqovuşan su anbarında aparılan əsaslı təmir işlərinin gedişi, turizm infrastruktur obyektlərinin tikintisi ilə tanış olub. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda yer alıb. ”Azərnəşr” tərəfindən buraxılan 126-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Britaniya jurnalı: Azərbaycan Cənubi Qafqazda davamlı sülhün təmin edilməsində israrlıdır!

28 May - Müstəqillik Gününün 105-ci ildönümü ilə əlaqədar olaraq Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanovun ”Diplomat” jurnalında məqaləsi dərc edilib. Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, məqalədə qeyd olunur ki, qısa müddət mövcud olmasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin qoyduğu irs 1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra milli kimliyin və dövlətçiliyin mühüm tərkib hissəsini təşkil edib.


DIPLOMAT

Today, Azerbaijan, led by President Ilham Aliyev, deepens and promotes regional integration and cooperative initiatives, widely supported by the international community. Having restored its territorial integrity after three decades of conflict with neighbouring Armenia, Azerbaijan insists on signing a peace agreement and normalisation to ensure a lasting peace for the South Caucasus. In a world full of violent conflict and volatility, President Aliyev's agenda for peace is a basis for the prosperous and secure future for our entire region.

Bildirilir ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında beynəlxalq hüquqa əsaslanan və regionunun gələcəyinə ümumi baxış əsasında formalaşmış güclü tərəfdaşlıq qurulub. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən və Britaniyanın strateji tərəfdaş kimi cəlb olunduğu Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Cənub Qaz Dəhlizi layihələrinin Avropanın enerji xəritəsini dəyişdiyi vurğulanır. Regional əməkdaşlığın əsas sütunlarından birini təşkil edən Avropa, Qafqaz və Mərkəzi Asiyanı birləşdirən Orta Dəhlizin son zamanlar baş verən geosiyasi təlatümlərin fonunda böyük strateji dəyər qazandığı qeyd olunur.

Azərbaycan və Britaniya arasında humanitar sahədə əməkdaşlıqdan bəhs edərkən, Britaniyanın aparıcı universitetlərində minlərlə azərbaycanlının təhsil alması, hər il Vindzor Kral Atçılıq Şousunda Azərbaycanın mədəniyyətinin nümayiş olunması, Kral III Çarlzın himayədarlıq etdiyi ənənəvi incəsənət üzrə şahzadə məktəbinin İçərişəhərdə fəaliyyəti misal olaraq göstərilir.

Azərbaycan və Britaniya arasında mövcud olan uğurlu əməkdaşlığın əsasının Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğu, müasir Azərbaycanın uğurlarının məhz onun uzaqgörən rəhbərliyi sayəsində mümkün olduğu bildirilir. Qeyd olunur ki, Britaniya vətəndaşları mərhum Kraliça Ülyahəzrət II Elizabetin xatirəsinə necə ehtiram bəsləyirlərsə, cari ildə Heydər Əliyevin yüzilliyini qeyd edən xalqımız onun irsini minnətdarlıqla xatırlayır.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin regional inteqrasiya və əməkdaşlıq təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi qeyd olunur. Bu xüsusda qonşu Ermənistanla otuzillik münaqişədən sonra öz ərazi bütövlüyünü bərpa edən Azərbaycanın Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi üçün sülh sazişi imzalamaqda israrlı olduğu vurğulanır. Zorakı münaqişələr və qeyri-sabitliklə dolu dünyada Prezident İlham Əliyevin sülhlə bağlı gündəliyinin regionunun firavan və təhlükəsiz gələcəyi üçün əsas olduğu diqqətə çatdırılır.

Həmçinin məqalədə işğaldan azad edilmiş Azərbaycan ərazilərinin dirçəldilməsində Britaniya şirkətlərinin əsas tərəfdaşlar sırasında olduğu bildirilir, ərazilərin minalardan təmizlənməsi səylərini dəstəkləməklə bir vaxtlar işğal olunmuş torpaqların mülki əhalisinin qayıtmasına və iqtisadi fəaliyyət üçün təhlükəsiz olmasına Britaniyanın öz töhfəsini verdiyi qeyd edilir.

## Samir Nuriyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşüb

Dünən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.



Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və çoxşaxəli tərəfdaşlığa söykənən ikitərəfli münasibətlərin davamlı şəkildə uğurla inkişaf etdiyi bildirilib. Neft-qaz, yaşıl enerjiyə keçid, ticarət, nəqliyyat, təhsil və digər sahələrdə əhəmiyyətli nailiyyətlərin əldə olunduğu vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinin fəal şəkildə davam etdirildiyi, çox qısa vaxt ərzində və daxili maliyyə imkanları hesabına böyük nəticələrin əldə olunduğu diqqətə çatdırılıb.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işlərində, xüsusilə şəhərsalma və minatəmizləmə fəaliyyətlərində Böyük Britaniya şirkətləri ilə səmərəli əməkdaşlıq edildiyi qeyd olunub. Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin daha da gücləndiriləcəyinə, ikitərəfli gündəliyin bütün sahələrində yeni nailiyyətlərin əldə olunacağına dair əminlik ifadə edilib.

# Azərbaycan-İsrail münasibətləri: yeni strateji hədəflər

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla İsrail arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Azərbaycan Cənubi Qafqazda İsrailin strateji tərəfdaşıdır və Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Ölkələrimiz arasında sıx, etibarlı və hər iki tərəf üçün faydalı əməkdaşlıq mövcuddur. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır, dövlətlərarası, siyasi və hərbi-texniki tərəfdaşlıq isə ən yüksək səviyyədədir. Xalqlarımız ümumi tarixlə, dini əlaqələrlə, mədəniyyət və musiqi ilə, tolerantlıqla və qonaqpərvərliyə sevgi ilə bir-birinə bağlıdırlar. İsrail Azərbaycanla kənd təsərrüfatı, innovasiyalar, kiber-texnologiyalar, "ağıllı" şəhərlər sahəsində daim güclənən əməkdaşlığını davam etdirmək niyyətindədir.







## "BU SƏFƏR ÖLKƏLƏRİMİZ ARASINDA DOST MÜNASİBƏTLƏRİN İNKİŞAFINA STİMUL VERƏCƏK"

Ölkələrimiz arasında əlaqələrin inkişafında və möhkəmlənməsində siyasi və iqtisadi maraqlar mühüm rol oynayır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində Azərbaycan ilə İsrail arasında enerji, müdafiə, milli təhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm və s. sahədə sıx əməkdaşlıq var. Azərbaycanda çoxsayda İsrail şirkətləri fəaliyyət göstərir. Təbii ki, bu əlaqələr - iki ölkə arasındakı münasibətlər qarşılıqlı hörmətə və razılığa əsaslanır. İsrail dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan səfəri bu əlaqələrin davamlılığına söykənir. "Əminəm ki, bu səfər ölkələrimiz arasında dost münasibətlərin inkişafına stimul verəcək". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla geniş tərkibdə görüşündə söyləyib. İsrail Prezidenti ilə ikitərəfli münasibətlərin gündəliyi və regional məsələlər barədə çox yaxşı müzakirələrin aparıldığını söyləyən dövlətimizin başçısı deyib: "Əminəm ki, heyət nümayəndələri ilə görüşlər, bilavasitə Sizinlə bu gün və sabah aparacağımız söhbət çərçivəsində geniş səpkidə məsələlər müzakirə olunacaq".

## "BİZ AYRI-AYRI İSTİQAMƏTLƏR - TİCARƏT, ENERJİ, TƏHLÜKƏSİZLİK SAHƏLƏRİ ÜZRƏ ARTIQ ÇOXLU İŞLƏR GÖRMÜŞÜK"

Bildiyimiz kimi, İsrail və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq daim inkişaf edir və möhkəmlənir. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun məlumatına görə, 2017-ci ildə Azərbaycan İsraildən daha çox silah alan üçüncü ölkə olub (137 milyon dollar dəyərində). İsrail-Azərbaycan münasibətləri bütün sahələri demək ola ki əhatə edir. "Biz ayrı-ayrı istiqamətlər - ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük, mən tamamilə əminəm ki, böyük potensial mövcuddur", - deyən Prezident çoxlu işlərin görülməli olduğunu da diqqətə çatdırıb və İsrail prezidentinin Azərbaycana səfərini tarixi səfər kimi dəyərləndirib.

## "BU İL AZƏRBAYCANIN İSRAİLDƏ SƏFİRLİYİNİN AÇILMASI ƏLAQƏLƏRİMİZİ YÜKSƏK SƏVİYYƏYƏ QALDIRACAQ"

Azərbaycan Prezidenti İlham Əliyev İsrail Prezidenti İsxak Hersoq ilə birlikdə mətbuata bəyanatında hazırda ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını vurğulayıb: "Budəfəki rəsmi səfər çərçivəsində ikitərəfli münasibətlərimizin gündəliyindəki mühüm məsələləri nəzərdən keçirmək üçün daha çox imkanımız oldu. Şübhəsiz ki, bu il Azərbaycanın İsraildə səfirliyinin açılması əlaqələrimizi yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı fəaliyyət üçün geniş imkanlar yaradacaq".

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin İsrail Dövlətində (Təl-Əviv şəhərində) səfirliyinin təsis edilməsi ilə bağlı Sərəncam imzalamışdır. Vurğulamaq yerinə düşər ki, 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Mövcud əlaqələrin inkişafında təbii ki, Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu çıxışların birində qeyd edən Ulu Öndər Heydər Əliyev yəhudilərin əsrlər boyu burda azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirmişdir: "Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır".

## "İQTİSADİ GÖSTƏRİCİLƏR TİCARƏT DÖVRİYYƏSİNİN 1,7 MİLYARD ABŞ DOLLARINDAN ÇOX OLDUĞUNU GÖSTƏRİR"

İsrail ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq xeyli artmaqdadır. Müstəqilliyimizin ilk illərində Azərbaycan sənaye sahələrini tənzimlədikdən və iqtisadiyyatını sərbəstləşdirdikdən sonra İsrail şirkətləri Azərbaycan bazarlarına nüfuz etdilər. Bir çox şirkət xidmət sənayesinə investisiya yatırdı. Məlumdur ki, İsrail Azərbaycan neftinin ən iri alıcılarından biridir. O, neftə olan tələbatının mühüm hissəsini Azərbaycan nefti hesabına ödəyir. İsrail həmçinin Azərbaycandan böyük həcmdə neft məhsulları idxal edir. 2007-ci ilin fevralında iki ölkə arasında ilk iqtisadi sənəd olan İnvestisiyaların Qorunması və Təşviqi haqqında razılaşma imzalanıb. "Bəzi iqtisadi göstəricilər ticarət dövriyyəsinin 1,7 milyard ABŞ dollarından çox olduğunu göstərir ki, bu da mühüm rəqəmdir. Amma hesab edirəm ki, növbəti illərdə ticarət dövriyyəmizi şaxələndirməyə çalışmalıyıq", - deyə Prezident mətbuata bəyanatında səsləndirib. Planlaşdırılan birgə layihələrin reallaşdırılması nəticəsində ticarət dövriyyəsinin daha çox tarazlaşdırılacağına ümid etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Bu, yalnız enerji amilindən asılı olmayacaq, baxmayaraq ki, Azərbaycan uzun illərdir İsrail üçün etibarlı xam neft tədarükçüsü hesab olunur. Bu, həm də enerji sahəsində sıx əməkdaşlığımızın olmasının göstəricisidir".

İsrail prezidentinin Azərbaycana səfəri çərçivəsində ölkələrimiz arasında qarşılıqlı turist axını səviyyəsinin artırılması da müzakirə edilib. "Hazırda həftədə cəmi 4 reys yerinə yetirilir" - deyən Prezident qeyd edib ki, bu, kifayət deyil. Nümayəndə heyətlərimizin üzvlərinə uçuşların sayını yalnız mövsümi əsasda deyil, həm də daimi əsasda artırmaq üçün müvafiq göstərişlər verilib. Həmçinin İsraildən daha çox turist dəvət etmək üçün orada mövcud olan təqdimat imkanlarının araşdırılması və Azərbaycandakı yəhudi icmasının çoxəsrlik həyatı haqqında ətraflı məlumat təqdim edilməsi barədə göstəriş verildiyini bildirən dövlətimizin başçısı bunun ölkəmiz üçün böyük sərvət olduğunu deyib.

Azərbaycanlılarla bu ölkədə yaşayan yəhudi icması arasında qədim dostluq və qardaşlıq əlaqələri mövcuddur. Müxtəlif ölkələrdən olan yəhudi mənşəli qonaqlar, həmçinin İsraildən Azərbaycana gələn müsafirlər və diplomatlar qeyd edirlər ki, bu diyarda antisemitizm yoxdur və yəhudilərə dost münasibəti göstərilir. 2600 ildən çoxdur ölkədə yaşayan Azərbaycanın Yəhudi icması heç bir zülmə, qırğına və ya yerli əhali tərəfindən digər nifrət təzahürlərinə məruz qalmayıb. Azərbaycanla İsrail arasındakı münasibətlərdə ən vacib aspektlərdən biri təbii ki, ölkəmizdə yaşayan yəhudi icmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yəhudi icmasının rolunu dəfələrlə qeyd edib. Azərbaycan dövlətinin başçısının çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan və yəhudi xalqları əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb, ölkələrimiz arasında bu dostluq və qardaşlıq münasibətləri bu gün də davam edir. Azərbaycanın yəhudi icması ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə fəal kömək edir. Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Yəhudi icması antisemitizmin olmadığı bu ölkədə o vaxtdan yaşayıb və yaşayır. Hazırda Azərbaycanda 7 sinaqoq, 2 yəhudi ibtidai məktəbi, 3 bağça və 1 "Yeşiva" fəaliyyət göstərir.

Azərbaycanın əsl qürur yeri olan Qırmızı Qəsəbə bütün dünyada İsraildən sonra dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə unikal məkandır. Azərbaycanda yaşayan yəhudilərin Şabat bayramının Qırmızı Qəsəbədə keçirməsi həqiqətən də buranın onlara doğma diyar olmasından xəbər verir. Burada ayrı-seçkilik kimi hallardan əsər-əlamət yoxdur. Onlar burada sülh şəraitində xoşbəxt yaşayırlar. Odlar diyarında yəhudilər və müsəlmanlar əsrlər boyu dinc yanaşı və harmonik həyat sürürlər. Azərbaycan özünün tolerantlıq nümunəsi ilə dünyada mövcud olan bütün stereotipləri məhv edir. Azərbaycan nümunəsi göstərir ki, əsas dinlərin - iudaizm, xristianlıq və islam dinlərinin nümayəndələrinin qarşılıqlı hörmət əsasında harmonik inkişaf etmələri üçün bu cür dinc yanaşı yaşamaq mümkündür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Türkiyə-Azərbaycan

## "bir millət, iki dövlət" və "bir yumruq!"

Müqəddəs deyim var: "Haqlısansa qorxma, haqq səni qoruyacaq!". Bəli, bu gün Türk xalqı öz müdrik qərarını verdi. Rəcəb Tayyib Ərdoğanı yenidən prezident seçməklə güclü və qüdrətli Türkiyənin tərəfində olduğunu bəyan etdi. Bu, təkcə türk xalqının deyil, həm də bütün azərbaycanlıların seçimi idi. Bu "2023-cü il Heydər Əliyev İli"ndə ən mühüm yarışması olan seçkilərdə sadəcə Ədalət və İnkişaf Partiyasının - Türkiyənin qələbəsi deyildi, bütövlükdə Qarabağ Zəfəri yenidən taclandı, şəhidlərimizin ruhu şad oldu, o torpaqlara sanki yeni nəfəs verildi və Zəngəzur dəhlizinin reallaşmasına əngəl olan qüvvələrin arzuları gözlərində qaldı və Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə prezidenti seçildi. Bu qələbə Türk qardaşlarımız qədər bizi də sevindirdi. Bu başqa cür də ola bilməz. Çünki bu qələbə qədim tarixlərin sınağından çıxmış Azərbaycan-Türkiyə - "bir millət, iki dövlət" həmrəyliyinin nəticəsi idi. Bu birliyin nəticəsini biz 2020- ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinin ilk günündən Qələbə Zəfrinə kimi Türkiyə daim bizimlə bir olub. Sevincimizə, kədərimizə şərik olub. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətilə Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası 2020-ci 10 dekabr tarixində Zəfər parada qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakı Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının daha bir əyani nümunəsi oldu.



**İLHAM ƏLİYEV:**
*"Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!"*

**RƏCƏB TAYYİB ƏRDOĞAN:**
*"Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür"*

Cari ilin aprel ayının 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında çıxışı zamanı bir daha bildirdi ki, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi: "İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi   Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Müttəfiqlik haqqında Bəyannamə imzalanması tarixi hadisə olmaqla, həm də dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

### ƏLİYEV-ƏRDOĞAN BİRLİYİ VƏ HƏMRƏYLİYİ - DÖVLƏT BAŞÇILARININ BİR-BİRİNƏ "QARDAŞIM" DEYƏRƏK MÜRACİƏT ETMƏLƏRİ HƏM XALQLARIMIZ, HƏM DƏ DÜNYA BİRLİYİ ÜÇÜN ƏSL NÜMUNƏ

Bəli, hər iki dövlət liderlərinin atdıqları qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər öncə Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı "Şərq Tərəfdaşlığı" sammitində "dərə xəlvət, tülkü bəy" yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev "Türkiyə burda yoxsa da, mən burdayam və sizin cavabınızı verəcəyəm", söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan "Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", "Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq", mövqeyi ilə Türk birliyi mesajını verdi dünyaya. Bir sözlə, Əliyev-Ərdoğan birliyi və həmrəyliyi, ümumiyyətlə dövlət başçılarının bir-birinə "qardaşım" deyərək müraciət etmələri həm xalqlarımız, həm də dünya birliyi üçün əsl nümunədir.

### TÜRKİYƏNİN UĞURLARI QARDAŞ ÖLKƏ OLARAQ BİZİ DƏ OLDUQCA QÜRURLANDIRIR

Azərbaycan Prezidenti İlham Əliyevin Rəcəb Tayyip Ərdoğanı prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı qeyd edib ki, milli iradənin təntənəsi olan səsvermənin nəticələri ölkənizin hərtərəfli inkişafı yolunda qətiyyətlə həyata keçirdiyiniz genişmiqyaslı siyasətə və əvəzsiz xidmətlərinizə verilən ən ali qiymətdir. Çağdaş dövrümüzün səhifələrinə qızıl hərflərlə həkk olunmuş fəaliyyətiniz Vətənə, xalqa, Türk elinə hədsiz sevginin, bağlılığın və sədaqətin bariz ifadəsidir. Təbrik məktubunda dövlətimizi başçısı qeyd edib: "Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Sizin liderliyiniz sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır".

"Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur". Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezident seçkilərində qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda yer alıb. "Sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin onurğa sütununu təşkil edir. Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə xatırlanır. Əziz Qardaşım, fürsətdən istifadə edərək, Sizi ilk səfərinizi Azərbaycana həyata keçirməyə dəvət edirəm"- məktubda qeyd olunub.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində əldə etdiyi qələbə ilə bağlı paylaşım edib: "Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".

Bəli, bu gün, Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən siyasi liderin Azərbaycan Prezidenti İlham Əliyevin olması və Ərdoğanın bunu xalqa müraciətində böyük fərəhlə açıqlaması ölkələrimiz arasındakı münasibətlərin hansı səviyyədə olmasının parlaq bir nümunəsidir. Eyni zamanda, dövlətimizin başçımızın qardaş ölkənin Prezidentini təbrik etməklə yanaşı, Azərbaycana dəvət etməsi bir daha bu qardaşlığın, "bir millət, iki dövlət" olmasının əbədiliyinin reallığıdır. Və Azərbaycan-Türkiyə birliyi əbədidir, sarsılmazdır və bundan sonra da dünyaya nümunə olacaq. Çünki uğurumuz da, sevincimiz də, kədərimiz də, düşmənlərimiz də birdir. Zəfər günün mübarək olsun, Böyük Türkiyə!.

**RƏFİQƏ KAMALQIZI**

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. YAP Gədəbəy rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Gədəbəy rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.





Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən dəyirmi masa keçirilib. Tədbirdə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən, titanik fəaliyyətindən söhbət açılıb. Sonda xatirə şəkli çəkdirilib.

# Modernləşən hava nəqliyyatımız



*"Mən xoşbəxtəm ki, artıq indi Azərbaycanın mülki aviasiyasının milli kadrları - azərbaycanlı təyyarəçilər, mühəndislər, mütəxəssislər vardır"*

*Ulu Öndər Heydər Əliyev*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il 18 may tarixli Sərəncamı ilə hər il iyunun 2-si ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Məhz 1938-ci il iyunun 2-də ilk aviasiya qrupunun yaradılması ilə Azərbaycanda mülki aviasiyanın təməli qoyulub. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan hava nəqliyyatının əsaslı şəkildə yenidən qurulması prosesini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ölkə başçısının son illərdə mülki aviasiya sahəsinə göstərdiyi daimi diqqət və qayğısının nəticəsi olaraq bir çox nailiyyətlərə imza atılıb. Azərbaycan son illər ərzində nümayiş etdirdiyi yüksək inkişaf tempi ilə yerləşdiyi regionda lider dövlətə çevrilən Azərbaycanın göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda müşahidə olunur. Belə ki, ökəmizdə bütün sahələrdə olduğu kimi mülki aviasiya sahəsindən də sürətli inkişaf yan ötməyib. Azərbaycana gələn əcnəbi üçün ölkəmizə səyahət bu qapıdan - hava qapısı adlandırılan məkandan başlayır. Ulu Öndər Heydər Əliyev dediyi kimi:"Hava limanı Azərbaycanın qapısıdır. Onu gərək elə göstərək ki, Azərbaycana layiq olsun". Bəli, beynəlxalq tədbirlər məkanı olan Azərbaycana gələn - vəzifəsindən, irqindən asılı olmayan hər kəs ölkəmizin güc və nüfuzunu ilk andaca hiss edir. Sonrakı addımları sehrli ölkəmizin yavaş-yavaş açılan qapılarından başlanır. Ölkəmizdə, paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlər zamanı Azərbaycana səfər edən əcnəblər şəhərimizin seyrəngahlığını, möhtəşəmliyini, gözəlliyini, dünya standartlarına cavab verən tələblər çərçivəsində inşa edilən Heydər Əliyev Beynəlxalq Aeroportunu görürlər. Bakı şəhərindən 20 kilometr şimal-şərqdə yerləşən məkanın VİP salonlarında və biznes-terminalında xidmətin nümunəvi təşkili, qonaqların qarşılanması və yola salınması üçün xüsusi qrupların, təyyarələrin, nəqliyyat xidmətinin, uçuş heyətinin, təyyarə bələdçilərinin, aviasiya təhlükəsizliyinin, gömrük və viza xidmətinin təmin edilməsini və s. yüksək ölçüləri ilə seçildiyini təsdiqləyir. Heydər Əliyev Beynəlxalq Aeroportu coğrafi mövqeyinə görə Şərqlə Qərb arasında və Şimalla Cənub arasında transfer marşrutlar üçün regionda bir nömrəli hava limanıdır. Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportundan London, Paris, Təl-Əviv, Ankara, Dubay, Roma, Moskva, Kiyev, Sankt-Peterburq, Vyana, Frankfurt və dünyanın digər şəhərlərinə uçuşlar təşkil olunur.

Ölkə Prezidenti Cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində mülki aviasiyamız 2003-cü ildən etibarən inkişafının keyfiyyət və miqyası etibarilə yeni bir mərhələsinə qədəm qoyub. Milli aviasiyanın inkişafı, infrastrukturunun təkmilləşdirilməsi və aviaparkın yeniləşməsində Prezident İlham Əliyevin qayğı və diqqəti də olduqca böyük əhəmiyyətə malikdir.

Mülki aviasiyamızın təməli yaxın keçmişimizlə bağlı deyil. Bir əsrdən artıq tarixi mərhələ var bu yolda. Belə tarixi olan Azərbaycan aviasiyası dünəndən bu günə qədər keçdiyi yolda mərhələ-mərhələ inkişaf edib. Mənbələrdən bəllidir ki, Azərbaycanda ilk təyyarə uçuşları 1910-cu ildə Bakının səmasında baş tutub. Bu, rus aviatoru Utoçkinin "Farman" tipli aeroplanla Balaxanı "şossesində" 4 gün ardıcıl olaraq həyata keçirdiyi uçuş olub. Azərbaycan aviasiyasının tarixi həmin zamandan yazılıb. Maraq doğuran hadisədən sonra Azərbaycanda təyyarə uçuşlarının sayı sürətlə artmağa başlayıb və qısa zamanda Bakıda və Yevlaxda aerodromlar tikilərək istifadəyə verilib. Azərbaycanın aviasiya tarixində uzaq məsafəyə ilk uçuş 1919-cu ildə həyata keçirilib. Azərbaycan mülki aviasiyası 1920-ci ilin aprelindən sonra SSRİ aviasiyasının tərkib hissəsi kimi fəaliyyət göstərib. Bu dövrdə Azərbaycan aviasiyası bir sıra məhdudiyyətlərlə qarşılaşsa da, müəyyən irəliləyişlərə də nail olub. 1938-ci il iyunun 2-də Mülki Hava Donanması Baş İdarəsinin əmri ilə Mülki Hava Donanmasının Azərbaycan aviasiya dəstəsi yaradılıb. Mülki aviasiya ilə bağlı bu xronoloji ardıcıllıq aviasiyanın keçdiyi yolun tarixinə həkk olub. Qeyd edək ki, ötən əsrin əvvəllərində təməli qoyulan mülki aviasiyamızın tarixini əks etdirən materialları araşdırarkən İkinci Dünya müharibəsi illərində bu sahədə əldə edilən nailiyyətlər də diqqət çəkdi. Belə ki, ön cəbhədə, arxa cəbhədə azərbaycanlı hərbi təyyarəçilərimiz, aviatorlarımız, hərbi və mülki aviasiya sənayesində çalışan mütəxəssislərimizin rolu danılmazdır. Müharibə illərində Bakının Keşlə qəsəbəsində iki aviazavod fəaliyyət göstərirdi ki, fasiləsiz işləyən bu müəssisələrdə "UTİ-4" və "YAK-3" tipli təyyarələr, habelə hidrotəyyarələr üçün xizəklər istehsal olunurdu.

### MİLLİ AVİASİYADA DÖNÜŞ

Azərbaycanın mülki hava donanmasının tarixində yeni keyfiyyətli dövr ötən əsrin yetmişinci-səksəninci illərinə təsadüf edir. Respublikanın 11 rayonunda yeni hava limanlarının tikilməsi və ya yenidən qurulması fikrimizi əsaslandırır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvanda, Beyləqanda, Zaqatalada "Yak-40" reaktiv təyyarələri üçün süni örtüklü qalxma-enmə zolaqları salındı. Bakı və Gəncə hava limanları müasir naviqasiya vasitələri ilə təchiz edildi. 1971-ci ildə Gəncə Avia müəssisəsi fəaliyyətə başladı. Bütün bunlarla yanaşı, Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunmuş hava limanları tikildi. Daha sonra 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın yüksək inkişaf tempini nəzərdə tutan proqram hazırlandı.

Ümummilli Lider Heydər Əliyev sovet dövründə milli aviasiyanın inkişafında istədiklərini tam həyata keçirə bilməsə də, müstəqillik dövründə bu sahədə olan arzularını gerçəkləşdirə bildi. Məlumdur ki, sovet hakimiyyəti dağıldıqdan sonra hərbi əmlakın və texnikanın əksər hissəsi ölkədən çıxarıldı, Azərbaycanda yerləşən silahlı qüvvələr isə birbaşa Rusiyanın tabeliyinə keçdi. Azərbaycan aviasiyası ağır vəziyyətə düşmüşdü. Bütün əlaqələr pozulmuşdu. Belə bir zamanda Onun uzaqgörən siyasəti nəticəsində aviasiya sahəsində böyük layihələrin həyata keçirilməsinə start verildi. 1993-cü ildə dünya şöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, milli aviasiya sahəsində də kəskin dönüşə səbəb oldu. Görülən tədbirlər nəticəsində xarici aviaşirkətlərlə müqavilələr bağlandı. Aviasiya xətlərinin miqyasının sürətlə artması Azərbaycanın dünyaya çıxışını asanlaşdırdı. Ulu Öndərin rəhbərliyi ilə "1998-2003-cü illər üçün Respublika Mülki Aviasiyasının İnkişaf proqramı" hazırlanıb, uğurla həyata keçirildi. Bu proqram çərçivəsində 1999-cu il oktyabrın 2-də Bakı hava limanında dünya standartlarına tam cavab verən yeni aerovağzal kompleksi tikildi.Müstəqillik illərində yaradılan "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Milli Aviasiya Akademiyası kadrların hazırlanmasında böyük rol oynadı. "Milli Aviasiya Mərkəzi" adı ilə yaradılan akademiya 1994-cü ildən Milli Aviasiya Akademiyasına çevrildi. Milli kadların hazırlanmasına xüsusi diqqət ayıran Heydər Əliyev "Mən xoşbəxtəm ki, artıq indi Azərbaycanın mülki aviasiyasının milli kadrları - azərbaycanlı təyyarəçilər, mühəndislər, mütəxəssislər vardır", - deyirdi. Akademiyaya 1998-1999-cu tədris ilində 11 ixtisas üzrə 276 nəfər daxil oldu. Bu gün akademiya Dövlətlərarası Aviasiya Komitəsinin mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsinə hüquq verən sertifikatına layiq görülüb.

### HAVA LİMANLARININ MADDİ-TEXNİKİ BAZASI MÖHKƏMLƏNDİRİLİB

Bu gün inkişaf səviyyəsi, maşın parkı və xidmət mədəniyyəti ilə seçilən milli aviadaşıyıcımız "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin təyyarələri Azərbaycandan çox-çox uzaq yollara dünyanın 30-dan artıq şəhərinə uçur. Mütəxəssislərin qənaətinə görə, dünyanın müxtəlif nöqtələrinə sərnişin daşımaları həyata keçirən güclü milli aviaşirkətin mövcudluğu ölkənin yalnız nüfuzu hesab olunmur. Bu, eyni zamanda dövlətin iqtisadi, mədəni, humanitar siyasətinin möhkəmlənməsinə müsbət təsir göstərir. Çoxşaxəli marşrutların mövcudluğu Azərbaycanın iqtisadi potensialını və turizm imkanlarını əhəmiyyətli dərəcədə artırmağa imkan verir.

"Azərbaycan Hava Yolları" aviaşirkəti İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış mülki aviasiya birliklərinin üzvüdür. Onun təyyarələri dünyanın onlarla şəhərlərinə müntəzəm uçuşlar yerinə yetirir, Aviaşirkətin uçuşlarının təhlükəsizliyinin artırılmasına daima böyük diqqət yetirilir. "Azərbaycan Hava Yolları" aviaşirkətinin tətbiq etdiyi təhlükəsizlik standartları bu gün dünyanın ən yüksək standartlarının tələblərinə uyğundur. Ümummilli Lider vurğulayırdı ki, "Azərbaycan Hava Yolları"nın ən vacib vəzifəsi uçuşların təhlükəsizliyinin təminatıdır. Şirkət fəaliyyəti dövründə buna nail oldu. Təəccüblü deyildir ki, iri və dünyada ən çox hörmət olunan "İCAO" beynəlxalq mülki aviasiya təşkilatının təqdim etdiyi audit nəticələri "Azərbaycan Hava Yolları" aviaşirkətinin Azərbaycandakı uçuşlarının təhlükəsizliyinin yüksək səviyyədə olmasını sübut edib. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Paytaxt və regionlarda olan hava limanlarının maddi-texniki bazası möhkəmləndirilib, müasir xidmət infrastrukturu yaradılıb. "Naxçıvan" beynəlxalq hava limanı, "Gəncə" beynəlxalq hava limanı və "Zabrat" hava limanında yeni təyyarə vağzalının binası istismara verilib. "Lənkəran" və "Zaqatala" beynəlxalq hava limanları açılıb.

### MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN BEYNƏLXALQ HAVA LİMANLARI

Mülki aviasiya sahəsindəki uğurlar bizə deməyə əsas verir ki, ölkəmizin coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi ölkəmizin dünyanın hava nəqliyyatı sistemindəki rolunu daha da artırır. Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərən Cənab İlham Əliyevin tapşırıq və göstərişlərinin yüksək səviyyədə icra olunması Azərbaycanın aviasiya sahəsinin tamamilə yeni mərhələyə çıxarılmasına şərait yaradıb. Bu gün Zəfər qazanmış Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yeni hava limanları tikilir. Artıq Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunaraq istifadəyə verilib. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. 2022-ci ilin oktyabrında Zəngilan Beynəlxalq Hava Limanı da istifadəyə verildi. Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aviasiya sahəsində kompleks şəkildə həyata keçirilən tədbirlər bu sahənin daha parlaq gələcəyindən xəbər verir. Milli aviasiyamızın sürətli inkişafı, yeni-yeni nailiyyətlərin əldə olunacağına əminlik yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

I YAZI

# Azad torpaqlarımız:

## Prezident Şuşaya 3 gündə 30 ilin töhfəsini verdi



***Dövlətimizin başçısının və birinci xanımın may ayının 8-də Şuşaya növbəti səfərləri həmişəki kimi yenə qəlbimizi qürur hissi ilə doldurdu. Budəfəki səfərin 28 il işğal altında qalan Şuşanın ermənilər tərəfindən vəhşicəsinə qəsb olunduğu 8 maya təsadüf etməsi isə ikiqat qürur və sevinc hissi yaşatdı xalqımıza. Çünki o 8 mayı Zəfərli 8 noyabr əvəz edib.***

1992-ci ilin həmin günündə ermənilər Şuşanı böyük şadyanalıqla əldə etmişdilər. Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialını və xalq tətbiqi sənəti muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarix muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir.

2020-ci ilin 8 noyabrında müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli ordumuz tərəfindən işğaldan azad olunan Şuşa digər rayonlarımız kimi bərpa olunur, abadlaşdırılır. Ötən 3 ilə yaxın dövrdə Şuşada böyük işlər həyata keçirilib. Dövlət başçısının budəfəki 3 günlük səfəri zamanı isə istifadəyə verilən və təməli qoyulan tikililər Şuşaya 30 illik bir dövrün töhfəsini bəxş etdi.

### O 8 may, bu 8 may...

Elə 8-10 mayı əhatə edən səfər zamanı o 8 mayla bu 8 mayın fərqini yaşadıqca ürəyimiz dağa döndü. Mayın 10-da dövlətimizin başçısının Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Şuşadan xalqa müraciəti isə bizi 2020-ci ilin noyabr ayının 8-nə- Prezidentin Şəhidlər Xiyabanından xalqa müraciəti etdiyi, ata vəziyyətini yerinə yetirdiyini bəyan etdiyi günə apardı. Həqiqətən də bundan qürurlu nə ola bilər?

Ulu Öndərimiz torpaqlarımızın geri alınması üçün beynəlxalq aləmdə böyükmiqyaslı işlər həyata keçirirdi. Lakin dünya susurdu. 2020-ci iləqədərki 17 ildə dövlətimizin başçısı da eyni Ulu Öndər kimi bu istiqamətdə danışıqlar apardı, Qarabağ problemini beynəlxalq səviyyədə həll etməyə, düşmənin sülh yolu ilə torpaqlarımızdan çıxarılmasına çalışdı. Lakin dünya yenə də susdu. Mənfur düşmən isə hələ üstəlik yeni ərazilər işğal etmək xülyasına düşdü. Belə olanda isə ulu öndərimizin həm mənəvi, həm də siyasi varisi Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu düşməni yerlərində oturtmağı bacardı. Şəhər, qəsəbə və kəndlərimiz qarış-qarış, kənd-kənd geri alındı. Biz övladlarımızı itirdik, lakin onların qanı ilə Azərbaycan tarixinin yeni səhifələrini yazdıq.

Bu səhifələrdə Şuşanın işğaldan azad olunması xüsusi yer tutur. Çünki bir möcüzə baş vermişdi. Düşmən əlində olan Şuşa böyük qətiyyətlə də qorunurdu. Düşmən ötən 28 ildə Şuşanın bütün sərvətlərinin, hüsnünün sahibinə çevrilmişdi. Onlar üçün Şuşa həqiqətən də möcüzə idi. Ömürlərində rastlaşmadıqları, görmədikləri bir möcüzə. Rahatlıqla, döyüşmədən əldə etdikləri bu möcüzəni əsla itirmək fikrində də deyildilər. Lakin gözləmədikləri yeni bir möcüzə baş verməkdə idi. 44 günlük Vətən Müharibəsinin son 10 günlüyündə qarşılaşacaqdılar bu möcüzə ilə. Və qarşılaşdılar da. Müharibədən sonra düşmən bəzi mətbuat orqanlarına müsahibələrində, söhbətlərində Şuşada möcüzə ilə üzləşdiklərini açıqca etiraf etmişdir. Onlar belə söyləyirdilər ki, heç gözləmədiyimiz halda bir də gördük ki, Azərbaycan əsgəri Şuşadadır. Onlar buraya haradan, necə gəlmişdilər, biz onu düşünürdük.




Azərbaycan əsgəri Şuşaya addım-addım, gecə-gündüz sürünə-sürünə, sinəsini dağa-daşa sürtə-sürtə, əl-ayaqlarında daşlar yaralar aça-aça gəlib çıxmışdı. Bu, əsgərimizin nəyə qadir olmasının göstəricisi idi. Bu, ürəyi torpaq sevgisi ilə dolu olan azərbaycanlı övladlarının əlbəyaxa döyüşü, texnikasız, silah-sursatsız bir taktikası idi. Bu, Milli Ordumuzun gücünün, Ali Baş Komandanımızın sərkərdəlik məharətinin, həmrəyliyimizin nümayişi idi. Bu barədə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edən cənab İlham Əliyev demişdir: ... Münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, - əgər buna dirəniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Şuşa necə ki, böyük əzmlə düşməndən geri alındı, bu gün də hüsnü böyük əzmlə özünə qaytarılır.

### Yol iqtisadiyyatdır: Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolu özündə bunu ehtiva edir

Başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilən Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,7 kilometr uzunluğundakı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Yolun 66-81-ci kilometrliyində işlərin 85 faizi başa çatıb. Uzunluğu 15,72 kilometr olan bu hissədə yolun hərəkət sahəsinin eni 10,75 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınaraq, dörd hərəkət zolaqlı olmaqla 1b texniki dərəcəyə uyğun inşa edilir.

Mayın 8-də dövlətimizin başçısı və birinci xanım Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olarkən bildirilib ki, layihəyə əsasən, yolun bu hissəsində 5 viadukun (dərə üzərində körpü), 6 tunelin və bir körpünün tikintisi üzrə əsas işlər yekunlaşıb. Hazırda həm viaduklarda, həm də tunellərdə son tamamlama işləri icra olunur. Viadukların tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib.

Yolun bu hissəsində suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 15 dairəvi suötürücü boru, 24 düzbucaqlı su keçidi, 4 alt keçid və bir neçə ehtiyat keçid inşa edilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.



## Su həyatdır: Şuşada nasos stansiyasının tikilməsi bu amilə xidmət edir

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən şəhərin su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılıb. Məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər erməni vandallar tərəfindən məqsədli şəkildə dağıdılıb və şəhərə suyun nəqli dayandırılıb.




Təxirəsalınmaz Tədbirlər Proqramına uyğun olaraq, Kiçik Kirs mənbəyinin və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilişi bərpa edilib. Eyni zamanda, Şuşa şəhərinin digər mənbəyi - Zarıslı sugötürücü qurğusunun, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı nəzərə alınaraq, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr təşkil edən sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni təzyiqli kəmər inşa edilib, eyni zamanda, diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 530-426 millimetr olan borularla əvəzlənib. Görülmüş işlərin nəticəsində 2022-ci ilin dekabrında yeni mənbədən suyun verilməsi ilə şəhərdə yaşayış olan evləri, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində Zarıslıçay nasos stansiyasını istifadəyə veriblər.



Dövlətimizin başçısına Şuşa şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri haqqında məlumat verilib.

## Xarıbülbül axtarışında

Ölkəmizdə bütün ictimai-siyasi hadisələrdə daim dövlətimizin başçısının yanında olan, xalqın hər bir nümayəndəsinə böyük həssaslıqla yanaşan, humanist və humanitar addımları ilə dünyanın tanıdığı Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram hesabında Şuşadan paylaşım etmişdi: "Xarıbülbül axtarışında. Hələ ki, tapmamışam".

Bu iki cümlə gözlərimiz önündə Şuşanın füsunkar gözəlliyini canlandırdı. Şuşanın rəmzi xarıbülbülə-28 il düşməndən gizlənib özünü göstərməyən nazlı gəlinə qovuşduğumuz baharı xatırlatdı. Şuşa deyiləndə gözlər qarşısında canlanan xarıbülbülü xatırlatdı.

Bütövlükdə Şuşa bizim xarıbülbülümüzdür. Şuşanı da, xarıbülbülü də bizə Ali Baş Komandanımızın sərkərdəliyi ilə ordumuz, minlərlə gəncimiz bəxş etdi. Biz Şuşanı dövlətimizin başçısının düzgün siyasəti, gələcəyə baxışı sayəsində yenidən tapdıq. Onu tapmaqla da xarıbülbülü tapdıq.

## "Azərişıq" Şuşanı nura boyayır

"Azərişıq" hələ müharibə bitməmişdi, artıq azad olunan ərazilərdə fəaliyyətə başlamışdı. Çünki elektrik enerjisi olmadan heç bir başqa işə başlamaq mümkün deyildi. Budur, "Azərişıq " ilə Şuşa nura boyanır.

Görülən işlərin davamı olaraq Şuşa şəhərinin ənənəvi elektrik təchizat şəbəkəsi rəqəmsal xəritə sisteminə köçürülərək planlama və ölçmə işlərinin aparılması təmin ediləcək. Şəhərin estetik görünüşünə xələl gətirən əvvəlki 48 Komplekt Transformator Məntəqəsi (KTM) əvəzinə müasir güc kabelləri ilə 35/0,4 kV-luq 9 transformator yarımstansiyası vasitəsilə dairəvi təchizat sxeminin qurulması həyata keçirilməkdədir. Bütün bunların nəticəsində kənar fiziki müdaxilələr və ətraf mühitin təsiri aradan qaldırılmış olur, ekoloji tələblər yerinə yetirilir, meşə zolaqları və canlı orqanizmlərin yanğın təhlükəsizliyi ilə bağlı risklər aradan qaldırılır. Bundan başqa, enerji itkiləri 3-3,5 faizədək azaldılır, işçi qüvvəsi, mal-material və istismar xərclərinə 60 faizədək qənaət olunur, enerji təchizatının keyfiyyət parametrləri yaxşılaşdırılır, texniki təhlükəsizlik qaydaları tam təmin edilir.

Mayın 9-da Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzinin açılışını edib.

Bir çox üstünlükləri özündə birləşdirən Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi (EŞİTM) haqqında dövlətimizin başçısına məlumat verilib.

X X X

Yaşıl Enerji Zonasında "Azərişıq" ASC tərəfindən qurulan paylayıcı şəbəkələrdə mikrosəviyyəli bərpaolunan enerji mənbələrinin tətbiqi enerji itkilərinin kompensasiyası, xüsusi sərfiyyat tələbatının ödənilməsi, enerji böhranı hallarında güc mərkəzlərinin dayanıqlı işinin təmini və elektrik avtomobillərinin enerji ilə təchiz edilməsi üçün nəzərdə tutulub. Bununla yanaşı, paylayıcı şəbəkələrdəki enerji obyektlərinin dam örtüklərində quraşdırılan Günəş enerji mənbələri bir sıra üstünlüklərə malikdir. Belə ki, bu mənbələr əlavə torpaq sahəsi tələb etmir, müasir ekoloji tələblərə cavab verir, güc mənbəyinə kommutasiyası ciddi xərc tələb etmir, illik ən azı 40 min kVts enerji istehsalı imkanına malikdir. Bir Günəş enerji mənbəyi ilə ildə 1150 elektromobilin enerji tələbatını təmin etmək mümkündür ki, bu da ildə 23 min ton karbohidrogen yanacağına qənaət deməkdir.

Müasir paylayıcı şəbəkələrdə tətbiq edilən paylanmış generasiya mənbələri, eyni zamanda, enerji böhranı hallarında qlobal mənbələr şəbəkəsi yaratmağa imkan verir ki, bu da enerji təchizatında dayanıqlılığı artırır.

"Azərişıq" ASC-nin bütün şəbəkələri üzrə transformator yarımstansiyalarının yaşıl enerji mənbələri ilə təchiz edilməsi nəticəsində illik 48 milyon kVts elektrik enerjisinin hasil olunması ilə 12 milyon kubmetr təbii qaza qənaət etmək mümkündür. Nəticədə Günəş enerji sistemlərinin bütün istismar dövrü ərzində $CO_2$ (karbon dioksid) kvota dəyəri də nəzərə alınmaqla, 145,4 milyon manat vəsait əldə edilə bilər.

İşğaldan azad edilmiş ərazilərdə inşası nəzərdə tutulan 400-dən çox enerji obyektində tətbiq ediləcək yaşıl enerji mənbələrinin bütün istismar dövrü ərzində orta hesabla 480 milyon kVts elektrik enerjisi ilə 120 milyon kubmetr təbii qaza qənaət təmin oluna bilər. Bununla yanaşı, bərpaolunan enerji mənbələrinin paylayıcı şəbəkələrdə tətbiqi iqlim dəyişikliklərinin mənfi təsirlərinin qarşısının alınmasında ölkəmizin Paris Sazişi üzrə istilik effekti yaradan qazların emissiyasının 2030-cu ilədək 35 faiz azaldılmasına imkan verəcək.

Ardı Səh.10

# Azad torpaqlarımız:

## Prezident Şuşaya 3 gündə 30 ilin töhfəsini verdi

Əvvəli Səh.9

*Heydər Əliyev, Atatürk, "Dəmir yumruq", 8 Noyabr... küçələri*

### Şuşanın hüsnünə heyranlıq bəxş edəcək

Dövlətimizin başçısının Şuşaya budəfəki səfəri bu təbiət gözəli şəhərdə yeni küçələrin salınması ilə də yadda qaldı. Həm adları, həm də görünüşləri ilə seçiləcək bu küçələr Şuşanın hüsnünə heyranlıq bəxş etməklə yanaşı, düşmən gözünə dağdır.

Şuşada salınan Heydər Əliyev küçəsinin uzunluğu 1751 metr, eni isə yol yatağına uyğun olaraq 10-14 metr aralığında dəyişir. Atatürk küçənin uzunluğu 714 metr, eni isə 11 metr, 8 Noyabr küçəsinin uzunluğu 2912 metr, eni 10 metrdir.

Molla Pənah Vaqif küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir. Pənahəli xan küçəsinin uzunluğu 864 metr, eni isə yol yatağına uyğun olaraq 10-13 metr təşkil edəcək.

Uzunluğu 438 metr, eni isə 14 metr olan Xurşidbanu Natəvan küçəsi şəhərin tarixi-mərkəzi hissələrini əhatə edir. Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 1963 metr, eni isə yol yatağına uyğun olaraq 10-11 metr aralığında dəyişir.

Şuşada əsas küçələrdən biri də Qarabağ küçəsidir. Bu küçənin uzunluğu 338 metr, eni isə 11 metrdir. Azərbaycanın Xalq artisti, görkəmli xanəndə Xan Şuşinskinin adını daşıyan küçənin uzunluğu isə 293 metr, eni isə 10 metrdir. Şuşanın tarixi-mədəni irsinin bir sıra nümunələrinin yerləşdiyi bu küçələr şəhərin orijinal memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq. Yenidənqurma işləri zamanı bu küçələrdə ən müasir infrastruktur yaradılacaq.

Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsini təmin edən və xalqımızın sarsılmaz birliyinin rəmzinə çevrilən Dəmir Yumruğun şərəfinə adlandırılan küçə şəhərin mərkəzi hissələrini əhatə edir. Dəmir Yumruq küçəsinin uzunluğu 2473 metr, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir.

Bərpa-yenidənqurma işləri Şuşanın tarixi görkəminə uyğun qaydada yüksək səviyyədə aparılır.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin açılışını edib. Prezidentə küçələrdə aparılan bərpa-yenidənqurma işləri barədə məlumat verilib.

### Qarabağ küçəsindəki yaşayış və qeyri-yaşayış binaları şuşalıların rifahına xidmət edəcək

Dövlətimizin başçısının fəaliyyət proqramının əsasında Qarabağa Qayıdış xüsusi yer tutur. Bu məqsədlə də yaşayış və qeyri-yaşayış evlərinin tikintisi sürətlə həyata keçirilir. Qarabağ küçəsində salınan binalar da şuşalıların doğma torpaqlarına qayıdarkən rahat yaşayış və məşğulluğu üçün nəzərdə tutulub.

Qarabağ küçəsində inşa ediləcək yaşayış binasının ümumi sahəsi 5400 kvadratmetr olacaq. Dörd mərtəbədən və zirzəmi qatından ibarət binada yerləşəcək mənzillərdən 24-ü ikiotaqlı, 6-sı isə üçotaqlıdır.

Ərazidə qeyri-yaşayış binası da inşa olunacaq. A və B korpuslarından, həmçinin ofis binasından ibarət həmin binanın ümumi sahəsi 5745 kvadratmetr nəzərdə tutulub. Binanın ikinci mərtəbəsində avtodayanacaq yerləşəcək.

Dövlətimizin başçısının tapşırığına əsasən Qarabağ küçəsinin abadlaşdırılması ilə bağlı ilkin vəsait ayrılıb. Abadlıq və infrastruktur işləri binaların inşası prosesi ilə paralel aparılır. Görülən işlərin bir qismi Prezident İlham Əliyevin tapşırığı ilə dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti bu küçəyə rəmzi olaraq "Qarabağ" adını verib. Gövhər Ağa məscidi, "Qarabağ" oteli, xüsusi nümayəndəliyin binası Şuşanın mərkəzini əhatə edən bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır.






Şuşalı keçmiş məcburi köçkünlərin yaxın gələcəkdə doğma şəhərlərinə qayıdışından sonra Prezident İlham Əliyevin tapşırığı ilə burada əsasən yerli sakinlərin işə götürülməsi nəzərdə tutulur. Bu baxımdan əhalinin məşğulluğunun təmin olunması istiqamətində də fasiləsiz iş aparılır, siyahılar dəqiqləşdirilir. Şuşada fəaliyyət göstərmək məqsədilə qeydiyyatdan keçən şirkətlər tərəfindən yerli sakinlər üçün təşkil olunan üç əmək yarmarkasında 200-dək şuşalı gənc siyahıya alınıb. Hazırda onlar üçün treninqlər təşkil olunur.

(Ardı var)

**Mətanət Məmmədova**

# İşğal və Zəfər muzeylərimiz

**İşğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası istiqamətində dövlətimiz tərəfindən ardıcıl işlər həyata keçirilir. Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerlə-yeksan edilmişdir. Əlbəttə ki, bu erməni vandallığının bir nümunəsidir. Ali Baş Komandan İlham**






**Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı düşməndən azad etdikdən sonra erməni vandallarının bədxah əməlləri bütün dünyaya çatdırıldı və dünya özü bu vəhşiliyin canlı şahidinə çevrildi.**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kitabxanalar, mədəniyyət evləri, mədəniyyət mərkəzləri, klublar, muzeylər, uşaq musiqi məktəbləri daxil olmaqla, 180 mədəniyyət obyekti tamamilə dağıdılıb. Erməni tərəfinin törətdiyi qeyri-insani hərəkətlərinin ağır nəticələrini nəinki insanlarımız, eləcə də tarixi-dini mədəniyyət abidələrimiz də yaşamışdır. 1988-ci ildən başlayaraq, erməni təcavüzü nəticəsində 100 mindən artıq əşyanın toplandığı 22 muzey işğal olunmuş ərazidə qalmışdı. Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyində 30 mindən artıq tarixi əhəmiyyətli əşya olub. Zəngilan, Qubadlı, Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeylərində də minlərlə abidə talan edilib. Bu muzeylərdə qorunub saxlanılan eksponatlar ermənilər tərəfindən ərazidən çıxarılıb. Bir qisim muzey əşyalarımız 3-cü ölkələrə də aparılıb.



Canlı muzey hesab olunan Şuşa şəhərində 8 muzey fəaliyyət göstərmişdi. Şuşanın işğalı zamanı Xalça və Tətbiqi Sənət Muzeyinin Şuşadakı filialı, Üzeyir Hacıbəylinin Şuşadakı Ev Muzeyi və s. işğala məruz qalıb. Şuşa şəhərində Şuşa və Xankəndi diyarşünaslıq muzeyləri tamamilə dağıdılıb. Dövlət Qarabağ Tarixi Muzeyi, Natəvanın, Bülbülün, Əbdürrəhimbəy Haqverdiyevin, Mir Mövsün Nəvvabın və başqalarının ev muzeyləri, Qurban Pirimovun Ağdamdakı xatirə muzeyi, Ağdam, Füzuli, Xocalının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilib. Eyni zamanda, Ağdamdakı unikal Çörək muzeyi də digər muzeylər kimi dağıdılıb. Bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində muzeylərimiz də bərpa və təmir olunur. Musiqiçilərdən Bülbülün, Üzeyir Hacıbəylinin ev muzeyləri təmir və bərpa olunub. Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır. Belə muzey komplekslərindən biri də Laçında yaradılır. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Laçına səfəri çərçivəsində Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirakı fikirlərimizi əsaslandırır. Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin losqu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir. Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir. Muzeyin binası əzəmətli və estetik gözəlliyi ilə fərqlənən memarlıq quruluşuna malikdir. Belə ki, binanın təpənin yamacına doğru uzanması sabitlik və dayanıqlılığı ifadə edir.




Rəmzi olaraq binanın quruluşu torpaqdan güc alaraq səmaya doğru yüksəlişi təcəssüm etdirir. Ərazinin relyefi ilə ahəng yaradan tikilinin dam hissəsində həm binanın daxilindən lift vasitəsilə, həm də Memorial Parkdan keçid imkanı olan iki panoramlı terras yerləşəcək. Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial Park salınacaq.

Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Qarabağ ərazilərində Zəfər və İşğal muzeylərinin yaradılması təklifi açıq səma altında muzeylərin yeni forması kimi 2021-ci il mayın 28-də Ağdamda öz real həllini tapdı. Bu kompleks müasir üslubda dizayn edilmiş muzey binası, xatirə gölü, memorial bağ və dağıntılardan ibarət olacaq. Ağdam Zəfər muzeyi kompleksi 5 hektara yaxın ərazini əhatə edəcək və bu bölmə müasir dizayna malik bina, Bayraq meydanı və Zəfər arenası hissələrindən ibarət olacaq.

Muzeylər Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirəcək mərkəzə çevriləcəkdir.

***Zümrüd BAYRAMOVA***

## “Onlara inanan yeniyetmələr təcrübəsizdir”

*QURUM RƏSMİSİ AÇIQLADI*



“Yeniyetmələrin və uşaqların qaçırılması, yaxud itkin düşməsi ilə bağlı daxili işlər orqanlarına daxil olan müraciətlərə son dərəcə həssaslıqla yanaşılır. Həmçinin, bu istiqamətdə dərhal polis əməkdaşları tərəfindən zəruri tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır”. Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev deyib.

Onun sözlərinə görə, daxili işlər orqanlarında itkin düşənlərin tapılması üçün bütün lazımi texniki vasitələr var: ”Bu texniki vasitələrlə həmin uşaqları zorla qaçıranlar, yaxud valideynlərin etinasız yanaşması səbəbindən itkin düşmələri ilə bağlı onların tapılması və aidiyyatı üzrə təhvil verilməsi üçün əməliyyat texniki tədbirlər həyata keçirilir. Bu tədbirlərdə də son dərəcə yeni texnologiyalardan istifadə etməklə polis əməkdaşları işi həyata keçirir. Biz vətəndaşlara və valideynlərə dəfələrlə müraciət etmişik ki, övladlarının sosial həyatına və sosial şəbəkələrdən istifadə edilməsi hallarına diqqətlə yanaşsınlar, onları daim nəzarətdə saxlasınlar”.

Nurlan Əliyev sözlərinə belə davam edib: ”Son zamanlar apardığımız müşahidələr də onu göstərir ki, sosial şəbəkələr vasitəsilə bəzi neqativ əməllərə meylli olan şəxslər azyaşlıların etibarından sui- istifadə edərək onları aldadırlar. Onlara inanan yeniyetmələr də təbii ki, təcrübəsizdir və düşünmədən edilən təkliflərə gedirlər.

Bəzi hallarda da görürük ki, yetkinlik yaşına çatmayan qızları guya evlənmək məqsədi ilə aldadıb evlərindən qaçmağa sövq edirlər. Bu istiqamətdə polis əməkdaşları tərəfindən məktəblərdə və təhsil ocaqlarında maarifləndirici tədbirlər həyata keçirilir. Belə hallarda vətəndaşlar diqqətli olsunlar, heç kimə inanmasınlar, tanımadıqları şəxslərlə danışmasınlar və onların dediyi sözləri dərhal valideynlərinə çatdırsınlar. Əgər, görsələr ki, hüquqa zidd əməl varsa bu barədə dərhal Daxili İşlər Nazirliyinin 102 zəng mərkəzinə zəng etsinlər və polisə məlumat versinlər”.

***Ayşən Vəli***


## BİLDİRİŞ

Hörmətli Səhmdar!

”BETON MƏMULATLARI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ nəzərinizə çatdırır ki, ”15” iyul 2023-cü il tarixində, saat 16:00-da Cəmiyyətin hüquqi və faktiki ünvanı olan Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 156E ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilməklə, Yığıncaqda həmin məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. ”Beton Məmulatları” Açıq Səhmdar Cəmiyyətinin 2022-ci il üçün illik maliyyə təsərrüfatı fəaliyyətinin müzakirəsi (2022-ci il üzrə maliyyə hesabatının təsdiq edilməsi) barədə;
2. ”Beton Məmulatları” Açıq Səhmdar Cəmiyyətinin 2022-ci maliyyə təsərrüfatı ilinin yekunlarına görə dividendlərin səhmdarlara ödənilməsi barədə;
3. Yığıncağın gündəliyində duran digər cari məsələlərin müzakirə edilməsi barədə.

Səhmdarlardan və ya onları Ümumi Yığıncaqda səlahiyyətli nümayəndə kimi təmsil edən şəxslərdən Yığıncaqda iştirak etmələri üçün aşağıdakı sənədlərin təqdim edilməsi xahiş olunur.

1. Səhmdarın özü iştirak etdikdə onun şəxsiyyətini təsdiq edən sənəd;
2. Səhmdar birbaşa özü deyil, nümayəndəsi vasitəsilə təmsil olunduqda təmsil edənin şəxsiyyətini təsdiq edən sənəd və ona səhmdar tərəfindən Ümumi Yığıncaqda təmsiletmə səlahiyyəti ilə bağlı verilmiş notarial qaydada təsdiq edilmiş etibarnamə;
3. Səhmdarın adına olan cari bank hesabı məlumatlarına dair sənəd (cari hesab barədə bank rekvizitlərinin əks olunduğu sənəd) - hesablanmış dividend məbləğinin hesaba köçürülməsi üçün.

***Hörmətlə, ”BETON MƏMULATLARI” ASC-nin İdarə Heyətinin sədri***

# Heydər Əliyev-100

## Azərbaycan xalqı yeni əsrə Ulu Öndərin zəkasının işığında qədəm qoyub

Uzaqgörən dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev üçün müstəqil Azərbaycan dövlətinin qurulması, müstəqilliyinin qorunması və gələcək nəsillərə ötürülməsi hər şeydən önəmli olmuşdur. Tariximizdə silinməz izi olan Ulu Öndərin möhtəşəm zəkası, misilsiz xidmətləri, ölkəsinə olan sevgisi, bağlılığı onu Azərbaycan xalqının müstəqilliyi və rifahının təminatçısına çevirmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanın tarixi, mədəniyyəti və milli dəyərlərinin qorunmasına və inkişafına həsr olunmuş bir dövlətçilik konsepsiyası təqdim etmişdir. Bu konsepsiyanın əsas istiqamətlərindən biri də gənc nəslin sağlam inkişafı və dəstəklənməsidir. Heydər Əliyev irsinin təməl daşlarından biri onun xalqın tərəqqisinin aparıcı qüvvəsi hesab etdiyi





*İlqar Axundov*
*YAP Gənclər Birliyinin üzvü, "İRƏLİ" İctimai Birliyinin baş katibi*

Azərbaycan gəncliyinin potensialına sarsılmaz inamındadır.

Dahi siyasətçi Heydər Əliyev Azərbaycana siyasi rəhbərlik etdiyi bütün dövrlərdə gənclərin inkişafını və rifahını hər şeydən üstün tutmuş, onların böyük potensialını firavan gələcəyin açarı kimi görmüşdür.Siyasi təlatümlər dövründə Azərbaycanda gənclərin üzləşdiyi çətinlikləri öz gözü ilə görən Ulu Öndər gənclərin potensiallarını ortaya qoyacaqları və ölkənin idarəetməsinə töhfə verə biləcəkləri bir mühit formalaşdırdı. Onun gənclərə olan inamı və dəstəyi təhsil, iqtisadi, siyasi, mədəni, ictimai və digər sahələrdə ilk gündən etibarən özünü göstərməyə başladı.Gələcək liderlər və peşəkar kadrların yetişdirilməsində təhsilin mühüm rolunu dərk edən Heydər Əliyev təhsil islahatlarına böyük önəm verirdi. Onun rəhbərliyi altında hökumət bütün səviyyələrdə keyfiyyətli təhsilə çıxışı yaxşılaşdırmaq üçün tədbirlər və proqramlar həyata keçirdi. İstedadlı və layiqli tələbələrin akademik arzularını həyata keçirmək və bərabər imkanlara malik olmasını təmin etmək üçün təqaüdlər, qrantlar və maliyyə yardımı proqramları yaradıldı. Bundan əlavə, Heydər Əliyev təhsil müəssisələrinin və kurikulumların müasirləşdirilməsi, azərbaycanlı gənclərin sürətlə inkişaf edən dünyada üstün olmaq üçün lazım olan bilik və bacarıqlarla təchiz edilməsinin tərəfdarı olmuşdur. Ulu Öndər Heydər Əliyev bilirdi ki, gənclərin bacarıqlarının artırılması, liderlərin yetişməsi üçün təhsillə yanaşı təşkilatlanmağa da ehtiyac var.

Buna görə də gənclərin dövlət quruculuğu prosesinə fəal töhfə vermələri, siyasi və ictimai platformalarda iştirak etmələri üçün Gənclər Təşkilatının formalaşmasına təşviq etdi, eləcə də Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi yaradıldı.İqtisadi imkanların gənclər üçün əhəmiyyətini dərk edən Heydər Əliyev gənclərin məşğulluq imkanlarını artırmaq və sahibkarlıq fəaliyyətini təşviq etmək üçün təşəbbüslər həyata keçirmişdir. Onun rəhbərliyi ilə gənclərin peşə hazırlığı, təcrübə keçməsi və iş ilə təmin olunması xidmətlərinin göstərilməsi üçün proqramlar təşkil olunmuşdur. Bundan əlavə, o, gənclər üçün əlverişli biznes mühitinin yaradılmasına dəstək göstərmişdir. Bu səylər gənclərə ölkənin iqtisadi inkişafına töhfə vermək, innovasiyaları təşviq etmək və öz gələcəklərini təmin etmək imkanı verdi. Adı müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Vətən Müharibəsi zəfərinin əldə olunmasında şüphəsizdir ki, Ulu Öndər Heydər Əliyevin dərin siyasi bilik-bacarığı, uzaqgörənliyi və gələcəkyönümlü addımları danılmaz bir həqiqətdir. Onun rəhbərliyi altında Azərbaycan Qarabağ münaqişənin həlli üçün sistemli və strateji yanaşma həyata keçirərək, diqqəti diplomatik danışıqlara, beynəlxalq dəstəyə və hərbi hazırlığa yönləndirdi.

Azərbaycan Silahlı Qüvvələrinin imkanlarının və peşəkarlığının gücləndirilməsini diqqət mərkəzində saxlayaraq, hərbi infrastrukturun modernləşdirilməsinə, təlim proqramlarının təkmilləşdirilməsinə və qabaqcıl silahların alınmasına sərmayə qoyulmasına şərait yaratdı. Dahi Lider Heydər Əliyev milli və mənəvi dəyərləri qorumaqla Azərbaycan xalqının birliyini təmin etdi. Müsahibələri və xalq qarşısında çıxışları ilə o, birliyin, vətənpərvərliyin və münaqişə qarşısında güclü iradənin vacibliyini vurğuladı. Ulu Öndərin rəhbərliyi Azərbaycan xalqında güclü əzmkarlıq hissi yaradaraq, ictimai dəstəyin və həmrəyliyin güclənməsinə kömək etdi. Bu gün əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Zəfər qazanan Ali Baş Komandan, Ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Müzəffər Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin dövründə yetişən gənclik onun ətrafında dəmir yumruq kimi birləşdi və Azərbaycanı irəlidə daha çox zəfərlərin gözlədiyini nümayiş etdirdi.Ulu Öndər Heydər Əliyevin gənclərin potensialına olan sarsılmaz inamı, onun uzaqgörən liderliyi, dəstəyi gənc nəslin bu gününün və gələcəyinin təminatçısıdır. Azərbaycan gəncliyi hər zaman Onun irsini qoruyacaq və gələcək nəsillərə ötürəcəkdir.

## Təqaüd yaşının artırılması hansı problem yarada bilər?

*MÜNASİBƏT BİLDİRİLDİ*

"Bugünkü gündə məşğulluğun təmin olunmasında ən böyük pay hissələrindən biri məhz təqaüdə çıxmış insanların yerinə yeni kadrların cəlb olunmasıdır. Bu gün birmənalı olaraq yeni kadrların işlə təmin olunmasında bu faktorun rolu çox böyükdür. Məsələn, müəllimlərin işə qəbulu imtahanı ilə fəaliyyətə başlayan gənc kadrların böyük əksəriyyəti 65 yaşında təqaüdə çıxmış müəllimlərin yerinə təyinat alırlar. Təsəvvür edək ki, müəllimlərin 65 yaşında təqaüdə çıxmasını əngəlləyirik". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.



Onun sözlərinə görə, bu zaman yeni universiteti bitirmiş gənc müəllimlər iş tapmaqda ciddi şəkildə problemlər yaşayacaqlar: "Onsuzda mövcud iş yerlərinin sayı tələbatı ödəməyə imkan vermir. Əgər təqaüd yaşını yuxarı qaldırsaq, onda yeni kadrlar ümumiyyətlə işsiz qalacaq. Qəribə məqam isə ondan ibarətdir ki, bir tərəfdən 65 yaşa çox deyirik, digər tərəfdən isə az deyirik. Azərbaycan təcrübəsində fakt onu göstərir ki, müəyyən istisnalar olduğu zaman insanlar vacib kadr kimi özünü təsdiq edirlər".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, təqaüd yaşının artırılması məsələsini ali məktəbdə fəaliyyət göstərən müəllimlər, həkimlər üçün tətbiq etmək olar: "Amma orta məktəb müəllimləri ilə bağlı məsələ bir qədər fərqlidir. Doğrudur, müəllimlik təcrübəsi çox önəmlidir. Lakin bu təcrübə hər şey demək deyil. Gedişat onu göstərir ki, gənc kadrların yeni yanaşmalarla dərs tədrisi daha uğurlu olur.

Bu yaş məsələsini konkret sahələrə bölmək doğru deyil. Amma subyektiv olaraq qeyd etmək istəyirəm ki, müəyyən sahələrdə, o cümlədən, tibb sahəsində təqaüd yaşının artırılmasını tətbiq etmək olar".

**Ləman**



## "Moskva görüşü İlham Əliyevin Paşinyana verdiyi tutarlı cavablarla yadda qaldı"

*POLİTOLOQ ŞƏRH ETDİ*

"Əslində gözlənildiyi kimi, Moskvada baş tutan görüş zamanı Azərbaycan və Ermənistan arasında heç bir sülh sazişinə imza atılmadı. Digər prizmadan baxdıqda biz bu görüşdə sülhün əldə olunmadığını müşahidə etsək də, eyni zamanda həmin masada kimin güclü, kimin zəif əl olduğunu, kiminsə demoqoqiya ilə məşğul olduğunu görmüş olduq. Belə ki, biz Moskva görüşü çərçivəsində Ermənistanın Baş Naziri Nikol Paşinyanın səhv etmirəmsə, iki dəfə Rusiya prezidenti Putinin sözünü kəsdiyinin şahidi olduq". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib. Onun sözlərinə görə, əslində, Paşinyanın Moskvanın mərkəzində oturub Vladimir Putinin sözünü kəsməsi ondan xəbər verir ki, artıq Rusiya prezidentinin əvvəlki nüfuzu qalmayıb: "Bu baxımdan artıq Paşinyan belə Putinin sözünü kəsə bilir. Hesab edirəm ki, bu Rusiya kimi dünyaya meydan oxuyan bir dövlətin və onun prezidentinin dünya qarşısında ambisiyasının sıfıra endirilməsi deməkdir. Paşinyanın bu hərəkəti Rusiyanın imicinə böyük bir zərbə idi. Bundan əlavə həmin görüş Avrasiya iqtisadi forumu üçün nəzərdə tutulsa da, Paşinyanın Putinin sözünü kəsməsi və Azərbaycan Prezidenti İlham Əliyevin ona tutarlı cavablar verməsi ilə yadda qaldı. Düşünürəm ki, Moskva görüşü çərçivəsində Azərbaycan güclü əl olaraq masadan qalxdı. Çünki o foruma toplaşan dövlətlərə və onların başçılarına baxarkən Azərbaycan Prezidentinə daha çox hörmət etdiklərini gördük".

Politoloq sözlərinə davam edərək bildirib ki, ilk növbədə iclas zalına Vladimir Putinlə ölkə başçımız İlham Əliyevin ikilikdə öndə daxil olması Azərbaycan dövlətinə və onun prezidentinə qoyulan hörmətin göstərcisi idi: "Onu da qeyd edim ki, biz bu cür hallarla yalnız həmin görüşdə rastlaşmadıq. Ümumiyyətlə, Azərbaycan dövlətinin başçısı dünyanın hansı ölkəsinə gedirsə, eyni hörmətlə qarşılanır. Digər tərəfdən ölkə başçısı İlham Əliyevin Nikol Paşinyana verdiyi layiqli cavablar da günə öz damğasını vurmuş oldu. Bu cavablar Azərbaycanın gücünü göstərmiş oldu. Hər ikisinin də şəxsiyyətini təhlil etsək görərik ki, Paşinyan siyasətdə şagird, dövlət başçısı İlham Əliyev isə artıq bir ustadır. Azərbaycan Prezidentinin istənilən dövlət başçısı, o cümlədən, media qarşısında etdiyi çıxışlar çox peşəkarcasınadır.

Hər bir halda mən belə görüşlərin davam etdirilməsi tərəfdarıyam. Çünki hər görüşdən-görüşə Azərbaycan öz qətiyyətli mövqeyini ortaya qoymuş olur və Ermənistan rəhbərliyinin gözünün içinə baxaraq öz haqq səsini bütün dünyaya bəyan edir. Bunların hər biri Azərbaycan adına müsbət bir haldır".

**L. Əlizadə**

# İnsanların nəsli kəsilir

## Dünyada ən vacib 3 sağlamlıq problemindən biri sonsuzluqdur, qidadan içkiyə, geyimdən ekologiyaya qədər uzanan sonsuzluq problemi böyüyür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**Dünyada təxminən hər altı nəfərdən biri sonsuzluqdan əziyyət çəkir. Ümumdünya Səhiyyə Təşkilatının son bəyanatında belə məlumat verilir. Hesabatda bildirilir ki, dünyanın bütün ölkələrində bütün sosial qruplarda bu vəziyyət hökm təsir göstərir. Təşkilatın baş direktoru bildirib ki, maddi rifahı yaxşı olan ölkələrdə böyüklərin 17,8%-nə, orta və aşağı gəlirli ölkələrdə isə 16,5%-nə bu diaqnoz qoyulur.**





### Sperma sayı 100 milyondan 15 milyona endi!

ÜST sonsuzluğu "kişi və ya qadın reproduktiv sisteminin xəstəliyi, 12 və ya daha çox aylıq müntəzəm qorunmayan cinsi əlaqədən sonra hamiləliyin əldə oluna bilməməsi" kimi xarakterizə edir. Hesabatda problemə xüsusi münasibət və bu əsasda ayrı-seçkiliyə son qoyulmasının vacibliyi vurğulanır. Bəyanatda deyilir ki, sonsuzluq milyonlarla insana təsir etsə də, mövzu hələ də yaxşı öyrənilməyib, həll yolları isə yüksək xərclər, sosial stiqma və digər məhdudiyyətlər səbəbindən bir çox insanlar üçün əlçatmaz olaraq qalır.

Dünyada həm kişilər, həm də qadınlar arasında nəsilartırma qabiliyyəti hər gün bir az da azalır. Əgər ötən əsr normal bir kişidə sperma sayı 100 milyon idisə, dövrümüzün kişisində bu rəqəm 15 milyondur. Kişilərdə sperma sayının sürətlə azalmasının səbəblərinə gəlincə isə, araşdırmaya görə siqaret, alkoqol, narkotik, iqlim dəyişiklikləri, qidalanma, stress kimi faktorlar əsas səbəblərdir.

Son 10 ildə bu mövzu mətbuatımızda olduqca çox müzakirə edilən mövzudur. Bəzi mütəxəssislər sonsuzluğu ekokogiya ilə əlaqələndirir, bəziləri bunun qidalar sayəsində yayıldığını deyir, bəzisi isə uşaq bezlərinin təhlükəsindən danışır, bir qisim mütəxəssis də əlüstü qidalanma kafelərində təklif olunan qidaların və içkilərin konkret olaraq sosnsuzluğa səbəb olduğunu deyir.

### Uşaq bezindəki təhlükə

Son 10 ilin ən dəbdə olan adətlərindən biri də anaların "pampers paradı"dır. Əgər siz cəmi 10 dəqiqə bir əczaxanada müşahidə aparsanız nə qədər uşaq bezi satıldığının şahidi olarsınız. Amma uşaq bezlərini istifadə edən valideyn ömründə bir dəfə bu bezin necə hazırlanması, nədən hazırlanması barədə maraqlanmayıb. Maraqlansa və istifadə edilmiş bezi kəsib içinə baxsa, orada maye ilə islanandan sonra yaranmış kiçik kristallara bənzəyən kütləni də görər və özünə sual verərdi: "Bu, niyə belə olur?".

Həkimlər də uşaq bezlərinin sonsuzluq yarada biləcəyini istisna etmir. Əksəriyyəti uşaqlara hazır bez geyindirməyin tərəfdarı deyil.





Ona görə ki, hazır uşaq bezləri sintetik məhsullardan hazırlanır. Əgər pambıqdan hazırlanmış bez olsaydı, bunun zərəri olmazdı. Hazır bezlər sidiyin, uşaq ifrazatının bədənə yapışıb qalmasına səbəb olur. Təbii prosesin əleyhinədir, o ifrazat bədəndən xaric olunursa deməli, uzaqlaşdırılmalıdır. Amma bezin içində saatlarla sidiklə təmas edən dəri uşağı narahat edir.

### Qadınlar geyimlərindəki təhlükədən xəbərsizdir

Ekspertlər deyir ki, qadınların uzun müddət dar şalvar geyinməsi damarların sıxılaraq qeyri-normal vəziyyət almasına və bunun nəticəsində də rəhmdə iltihablanma, göbələk, ayaqların büküm yerlərində bədən yaralarına da səbəb olur. Bu cür geyimlər mütəmadi geyinilərsə rəhm və yumurtalıq xərçənginə belə səbəb ola bilər. Daha təhlükəlisi isə çox dar geyimlərdən istifadə edən, neylon və sintetikadan ibarət "kapron" corablar konkret olaraq sonsuzluğa səbəb olur. Gün ərzində soyuq havada bu kapron corablarla gəzən qadın bütün bədəninə rütubət yığır, qadınlıq orqanları xəstələnir və sonsuzluğa addım-addım yaxınlaşır. Maraqlansaq görərik ki, bütün yeni evlənən qızlar həkim müalicəsi olmadan, iynə-dərman dəstəyi olmadan hamilə qala bilmir. Bu isə doğulacaq körpəyə zərərdir. İynə-dərmanla yetişən fabrik toyuqları kimi uşaqlar da iynə-dərmanla zorakı yaradılır.

Kişilərin dar şalvar geyməsi kişi yumurtalıqlarının bədənə daha yaxın yerdə dayanmasına səbəb olur. Yumurtalar bədəndən daha aşağı temperaturda olmalıdır, amma dar geyim onları bədənə möhkəm sıxdığı üçün bədənin temperaturu ilə uyğunlaşır. Bunun nəticəsində də sperma hüceyrələrinin hərəkətliliyi və sayı aşağı düşür. Kişilər dar şalvar və dar alt paltar geydikcə sperma yollarının tıxanmasına və bu vasitə ilə sonsuzluğun yaranmasına özləri yol açır. Eyni zamanda, dar geyimdə olan kişi saatlarla o geyimdə oturaq işdə işləyirsə, vəziyyət daha da təhlükəli hal alır. Dəb adı altında illərdir bu cür şalvarları istehsal etməklə demoqrafiq artıma təhlükə yaradırlar.

### Energetik içkilər kişilik potensialını məhv edir

Energetik içkilərin tərkibi, bu içkilərin insan orqanizminə zərərləri barədə olduqca çox məlumatlar yayılır. Daha çox gənc nəslin istehlak etdiyi bu içkilər uşaqlara, hamilə qadınlara və ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara qadağan edilir. Səbəbi çox sadədir - onun verdiyi süni enerji çox hallarda fəsad verir və ürəyin dayanmasına belə səbəb olur.

Belə ki, energetik içkilərin tərkibində "taurin" adlı maddə də olur. Bu maddə isə ürək fəaliyyətini gücləndirir və gücə düşən orqan qəfil dayanır. Energetik içkinin tərkibində olan qlükoza və kofein gənc orqanizmə olduqca zərərdir. Energetik içkilərin zərəri barədə nəinki bir qəzet səhifəsi yazı, hətta bir kitablıq araşdırma belə yazmaq olar. Qısaca qeyd edək ki, Fransa və Filippində, Norveç və Danimarka kimi ölkələrdə energetik içkinin satışına qadağa qoyulub. Çünki bu ölkələrin elmi-tədqiqat institutlarında energetik içkilərin sonsuzluğa və allergik xəstəliklərə səbəb olması barədə tutarlı tədqiqatlara imza atılıb. Almaniyada isə, ümumiyyətlə, energetik içkilərin istehsalı qadağan edilib.

### "Cola" potensial sperm qatilidir

Bir müddət əvvəl Danimarkada yerli alimlər 2 min oğlan üzərində araşdırma aparmışdılar. Məlum oldu ki, gündəlik 1 litr "Cola" içən oğlanlarda bu içkidən istifadə etməyənlərlə müqayisədə spermanın keyfiyyəti düz 30% aşağı olur. Bunun nəticəsi ilə sonsuzluğa aparıb çıxarır.

Həmçinin, qərb ölkələrinin birləşmiş həkimlər qrupu da bir neçə il boyunca məhşur içkilərin, eyni zamanda, "Coca-Cola"nın sonsuzluq yaratması faktını araşdırıblar. Təbii ki, araşdırmaların nəticələri elə də ürəkaçan olmayıb. Məlum olub ki uzun müddət kolanın qəbulu, kişilərdə və qadınlarda sonsuzluqla nəticələnir. Buna səbəb içkinin hazırlanmasında istifadə edilən "kola qozu" verir. Məlumat üçün qeyd edək ki, keçmişdə bu qoz yalnız Amerikada bitirdi və onu hindu döyüşçülərə məcburi çeynədirdilər. Çünki əsgər cinsi istəyinin ardınca gedərək ordudan yayına bilərdi. Bu qozdan hazırda bəzi ölkələrin ordusunda əsgərələrə gizli şəkildə yedirilir. "Coca-cola"-nın tərkibinə əlavə edilən bu məhsul da məhz cinsi zəifliyə, dolayısı ilə sonsuzluğa səbəb olur. "Coca-cola"-nın xərçəng xəstəliyi yaratması faktı isə artıq təsdiqlənib, bu barədə yazmağa ehtiyac yoxdur.

### İsrail şokoladla sonsuzluq yayırmış

1980-ci illərdə Orta Şərqdə olduqca çox mübahisə edilən bir mövzu var idi. Hətta buna "sui-qəsd nəzəriyyəsi" adı da vermişdilər. Həmin bu nəzəriyyəyə görə, sionistlər gizli laboratoriyalarda tərkibində bol miqdarda "progesteron" (aybaşı dövrünə nəzarət edən hormon) ehtiva edən şokolad hazırlayıb və bu şokoladları fələstinli gənclərə yedirdirdilər. Hədəf xüsusilə gənc qızlar idi. Onların doğma qabiliyyətlərinin azalmasına - sonsuzluğa səbəb olan şokaladlar qızların diqqətini çəksin deyə xüsusi olaraq dizayn edilirdi.

Fələstinli qızların əksəriyyəti doğmaq qabiliyyətini itirəcək və beləcə Fələstində əhali sayı artmayacaq, beləliklə yəhudilər öz planlarını rahatlıqla reallaşdıracaqdılar. Fələstin hakimiyyəti ölkə xaricində bu şokaladların olmadığını biləndə analiz etmək və tərkibini öyrənmək qərarına gəlir. Məlum olur ki, fələstinlilərin artmasına qarşı yönəlmiş bir addımdır. O vaxtlar bu barədə olduqca çox qəzet, məşhur tv-lər məlumat yayımladı.

### "McDonalds" bütün dünyaya sonsuzluq "bəxş edir"

Qarışqa kimi bütün dünyaya yayılan bu biznes Amerikanın büdcəsini artırmaq və dünya xalqlarına daha çox xəstəlik yaymaq üçün kurs götürüb. "McDonalds"ın bütün qidaları birmənalı olaraq insan orqanizminin düşmənidir. Təhlükəli maddələrdən ibarət yağda qızardılmış GMO-lu kartof, sıçan geni vurulmuş tərəvəz və göyərtilər, kişilik potensialını məhv edən içkilər insan orqanizminin ən böyük düşməni olmaqla yanaşı, Amerika büdcəsinin ən yaxın dostlarıdır.

Çünki dünya ölkələrində məhz bu geni dəyişdirilmiş qidalar sayəsində milyonlarla insan xəstəliyə tutulur, dolayısı ilə dünya əhalisi azalır, dərman biznesi çiçəklənir. "McDonalds"ın yeməklərinin sonsuzluq, piylənmə, allergik xəstəliklər yayması məsələsi bütün dünya ölkələrinin mətbuatında olduqca çox yazılan və müzakirə edilən mövzudur. Amma genetik modifikasiyaya uğramış məhsullarla "McDonalds"da qidalanan insanların orqanizmini necə uyğunlaşdırıblarsa bir dəfə gedən, yenə getmək istəyir. İnsan "görəsən yeməklərində asılılıq yaradan hansı maddəni istifadə edirlər?" deyə düşünür.

Qeyd edək ki, "tez-bazar" hazırlanan qidaların tərkibindəki kimyəvi və fiziki dəyişikliyə uğramış qarışıq maddələr bədənin müqavimətini zəiflədir. Həftədə 3-4 dəfə "fast-food"la qidalanan kişilərin 42 faizinin spermatozoidinin tərkibi digər normal qidalanan kişilərə nisbətən dəfələrlə zəifdir.

### Texnologiya da sonsuzluğa səbəb olur

Nyu-York uroloqları yaşı 21-35 arasında olan çoxlu sayda kişi üzərində eksperiment apararkən onlardan 1 saat ərzində dizlərinin üzərində noutbuk qoyaraq işləmələri istənilib. Sonradan aparılan analiz kişilərin hamısında nəsil atırmaq imkanlarının azaldığını göstərib. Alimlər müəyyənləşdirib ki, bu, noutbukdan yayılan isti hava axını ilə əlaqədardır. Onlar kişilərə dizlərinin üzərində kompyuteri 11 dəqiqədən artıq saxlamamağı məsləhət bilir.

Həmçinin Argentinada aparılmış araşdırma naqilsiz internetin kişilərdə sonsuzluq yaratdığını ortaya çıxarıb. Tədqiqatçılar Wi-Fi istifadəçisi olan kişilərdə cinsi problemlərin meydana çıxdığını bildirirlər. Xüsusilə onların spermatozoidlərinin keyfiyyəti xeyli azalır. Bu isə nəhayətdə sonsuzluğa aparıb çıxarır. İlkin versiyaya görə, Wi-Fi istifadəçilərində spermatozoidlərinin keyfiyyətinin azalmasına naqilsiz qoşulma zamanı əmələ gələn elektromaqnit dalğaları səbəb ola bilər.

Eyni zamanda mikrodalğalı sobalarda isidilən yeməklər də sonsuzluq yarada bilir. Belə sobalar yüksək nisbətdə radiasiya göndərərək qida atomlarını sürətləndirir və isinmələrini təmin edir. Bu sobanın içindəki qidaya göndərdiyi radiasiya, bir "WI-FI" şəbəkəsindəki radiasiya sıxlığının təxminən 100.000 dəfə artıqdır və dolayısı ilə sonsuzluq yaratması riski də bir o qədər çoxdur.

*Lalə Mehralı*

ARAŞDIRMA

# "Geniş hərbi əməliyyatların keçiriləcəyi istisna edilmir"

**"Faşist xislətli bədnam qonşularımızın otuz ildən artıq bir müddətdə regionda sülh və əmin-amanlığa təhdid yaratmaqla, əslində, eyni zamanda, özlərinə ağır zərbə vurmuşlar və vurmaqda davam edirlər". Bunu "Səs" qəzetinə açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.**



Təhmasib Novruzov bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan xalqına və ordusuna güvənməklə işğal altında olan torpaqların azad edilməsinə və regionda geosiyasi mənzərəni Azərbaycanın xeyrinə dəyişmə-





yə nail oldu: "Əslində, 2020-ci ilin noyabrında ordumuzun bütün ərazilərdə əməliyyatı uğurla başa vurmağa, bütün əraziləri erməni quldur dəstələrindən azad etməyə qadir olduğu halda, Ermənistanın və Rusiyanın təklifi ilə hərbi əməliyyatları dayandırmağa, düşmənin kapitulyasiya sənədinə imza atmağa razılaşması özü Azərbaycan liderinin və xalqın sülhpərvərliyinə, regionda əmin-amanlığın yaradılmasında istəkli olduğuna bariz sübutdur. Təəssüf ki, düşmən tərəf və onlara havadarlıq edənlər Azərbaycanın bu sülhpərvər addımını lazımınca dəyərləndirə bilmədilər. Dəfələrlə yeni provakasiyalara əl atdılar və hər dəfəsində də ordumuz və diplomatlarımızın uğurlu qələbələrinin qarşısında geri çəkilməyə məcbur edildilər. İndi beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının Konstutusiyasına əsaslanan bütün istədiklərini reallaşdıran Azərbaycan son akkordlarını da vurmaq ərəfəsindədir. Söhbət Qarabağ İqtisadi zonasında hələ də qalmaqda olan qanunsuz hərbi birləşmələrin burdan çıxarılmasından və separatçıların, nəhayət ki, reallığı qəbul edib iddialarında əl çəkərək Azərbaycan vətəndaşlığını qəbul edərək normal həyata dönmələrindən gedir. Ölkə Başçısı əvvəllər də bu barədə fikirlərini dəfələrlə səsləndirmiş və heç bir statusun olmayacağı haqqında Azərbaycanın rəsmi mövqeyini qarşı tərəfə bildirmişdi. Ancaq bu dəfə Laçında, uzun həsrətdən sonra doğma yurdlarına dönmüş sakinlərlə görüş zamanı səsləndirdiyi fikirlər son və qəti xəbərdarlıq kimi qəbul edilməlidir. Erməni separatçılar əmin olmalıdırlar ki, onların Azərbaycan vətəndaşlığını qəbul edib, bütün qondarma "respublika" oyunlarına son qoyub dinc həyata dönmələrindən başqa yol yoxdur. Məncə ölkə başçısı həmin çıxışında diplomatik şəkildə bəyan etdi ki, əgər separatçılar bizim bu humanist təkliflərimizdən də nəticə çıxarmasalar, biz bunu beynəlxalq hüququn bizə verdiyi imkanlardan maksimum istifadə etməyə vadar edəcək. Maksimum imkan isə, nəhayət, hərbi yolla bu problemi həll etmək yollarından gedir. Odur ki, ermənilərin bu mesajlardan da nəticə çıxarmadıqları halda istənilən hərbi əməliyyatların aparılması qaçılmaz olacaq. Bu, antiterror əməliyyatı da ola bilər, geniş hərbi əməliyyat da ola bilər. Çünki qarşımızda 10-12 min nəfərlik silahlı qruplaşma dayanır. O zaman geniş hərbi əməliyyatların keçiriləcəyi də istisna edilmir".

**GÜLYANƏ**

MÜNASİBƏT

# Yeniyetmələrin itkin düşməsinin səbəbi nədir?



"Zəmanəmiz yeni yaşam tərzi ilə bərabər bir çox problemləri də insanların qarşısına qoyub. Onlardan biri də valideynlərlə övladlar, ümumilikdə nəsillər arasında olan fərqlər, anlaşılmazlıqlardır. Bu problem nəticəsində nə qədər təəccüb doğursa da, yeniyetmələrin son zamanlar itkin düşməsi adı altında aylarla Bakının bir çox qaranlıq yerlərində yaşaması və özündən yaşca çox böyük kişilərə ərə getməsi halları baş verir". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.



**EKSPERT DANIŞDI**

Onun sözlərinə görə, bu bir tərəfdən həyatla əlaqədar olsa da, digər tərəfdən sosial şəbəkələrlə də əlaqəlidir: "Əslində, sosial şəbəkələr bütün dünyada alternativ təhsil, iş yeri, həyatın virtual variantı kimi qəbul edilir. Amma bizdə bir çox qaranlıq işləri həyata keçirmək üçün vasitəçi kimi istifadə olunur. Yeniyetmələr sosial şəbəkələrdə özlərinə dost, həmdəm axtarmağa çalışır. İstər oğlanlar, istərsə də qızlar yerli və xarici fırıldaqçıların təsiri altına düşməyə başlayırlar. Azərbaycanda bunun özünəməxsusluğu var. Belə ki qızlarımız ərə getməklə bağlı arzularını sosial şəbəkələr vasitəsilə reallaşdırmaq istəyir".

Ekspert sözlərinə davam edərək bildirib ki, bir çox ictimai qınağa tuş gəlmiş hadisələrdə əsas qəhrəmanlar yeniyetmə qızlardır: "Bu yeniyetmə qızlar xüsusilə Bakıda olan yaşlı kişilərə ərə getməyə və onların təsiri ilə bir çox mənfi hadisələrə cəlb olunurlar. Bundan əlavə, oğlan uşaqlarının dilənçiliyə cəlb edilməsi, narkotik maddələrin satışı ilə əlaqədar yaradılmış qeyri-qanuni şəbəkələrə üzv edilməsi kimi mənfi hallarda da sosial şəbəkələrin rolu böyükdür. Sosial şəbəkələr bizim həyatımızın güzgüsüdür. Həyatımızda olan bir çox çatışmayan cəhətlərə görə sosial şəbəkələri bağlamalı deyilik. Əksinə çalışmalıyıq ki, müsbət yöndə onlardan yararlanaq. Necə ki müharibə zamanı bunu etdik, normal şəraitdə də edə bilməliyik. Mənfi hallara qarşı ictimai tənqid mexanizmləri hazırlanmalı, cinayət və inzibati məcəllələrdə dəyişikliklər edilməli, neomaarifçilik vasitəsilə gənclərimizi qoruya bilək".

**Ləman Əlizadə**



Lalə Mehralı

# Və insan doğuldu...

**İnkişaf, tərəqqi, yeniliklər qorxudub məni həmişə. İnsan övladının etdiyi hər yeni ixtira sona daha çox yaxınlaşdığımızı hiss etdirir mənə. İnternet, süni intellekt, robot qadınlar, süni insan fabriki hazırlıqları ilə insan övladı hədələyir dünyanı.**

Dünyaya, kainata, Tanrıya aid sirlər açılır bir-bir.

İnsan Yaradana meydan oxuyur.

Bəlkə öz yaratdığına verdiyi qüdrət üçün çoxdan peşman olub o da.

Bəlkə də doğulduğu üçün insan da peşman olacaq nə vaxtsa.

Hər şey olub bitdikdən sonra, son yaxınlaşdığı zaman...

Daha hər şey edə bilir insan.

Uça bilir, göyün yeddinci qatında, suyun altında yaşaya bilir, Ayı, ulduzları fəth edə bilir, atomu parçalayır, torpaqdan, küləkdən enerji düzəldir, minlərlə kilometr uzaqlığa görüntü, səs göndərə bilir, dünyanın hər yerini canlı izləyə bilir, hərəkət edən, ağlı-şüuru, dərrakəsi olan robotlar düzəldə bilir. Bir az da irəli gedərək insan düzəltmək üçün araşdırmalara başlayıb insan.

Açdığı hər sirrə görə yaradana daha çox yaxınlaşır, bildiyi hər şeyə görə dünyanın sonuna doğru gedir.

Allahlıq istəyir insan.

Bu potensialı görür özündə.

Əslində, bildiyimizi bilmədiyimiz çox cövhər var içimizdə.

Bildiyimizin fərqinə vardığımız günü düşündükcə ətim ürpəşir.

Bir gün öləcəyini bilə-bilə heç vaxt ölməyəcəkmiş kimi yaşayır insan.

Bir həqiqəti bilib etinasızcasına kənara itələmək cəsarətdir, ya ağılsızlıq?

Normalda ölüm qorxusu ilə yaşamaq istəyi bir-birinə yoldaşdır.

Biri, digəri olmadan zehnində yer eləmir insanın.

Ən çətin anımızda, ölməyi arzuladığımız vəziyyətlərdə belə yaşamaq istəyi həmişə üstün gəlir.

Yaşamaq istəyimizin ən dolu, ən güclü olduğu zamanımızda belə ölüm qorxusu hiss etmişik mütləq, boyun-boğazımızda soyuq nəfəsi dolaşıb nə vaxtsa.

Fikrimcə, bəzilərimizin içindəki qaranlığın ölüm qorxusunun böyüklüyü, bəzilərimizin içindəki işığın yaşamaq istəyinin çoxluğu ilə bir əlaqəsi var.

Məncə, əksinə olmalıdır.

Axı yaşamağın bir sonu, ölümün isə sonsuzluğu var.

İnsan sonu olan şeylərdən qorxmaq yerinə, sonu olmayan şeyləri sevsə daha xürrəm olmazmı?

Məncə, bunu dərk etsə ölməyə də tələsər insan.

Zehni, dərrakəsi süni insan yarada biləcək qədər inkişaf edən insan övladının öləcəyini bildiyi halda ölümə inanmaması da bir ayrı müəmma deyilmi?

Bəlkə də ölməyəcəyinə olan inam həyatda saxlayır insanı.

Əgər bir gün yaşamağa dair ümidlərini itirsə sona doğru daha çox yaxınlaşar.

Ümid ən sonda da ölmür. Ümid həmişə yaşayır.

Ümid əbədiyaşardır məncə.

Ümid də nəfəs alır, gəzir, düşünür.

Ölümcül xəstələrinin xoş sözlərlə ömrünü uzadan həkimlər ümiddir məsələn.

İnam insan üçün yeməkdir, sudur, havadır.

İnam sonsuzluğa inandırır insanı, ümid sonsuzluğun olma ehtimalına.

İçindəki qaranlığa qalib gələnlər ölümə də qalib gəlir əslində.

İçinizdəki qaranlıqdan qorxmayın. Orda günah, ayıb bildiklərinizlə yanaşı insanın qüdrəti, gücü də gizlənib. Tutun əlindən, azadlığa çıxarın.

Dünya o vaxt yaşanılası halda olmaz ki içimizdəki qaranlıqlar böyüsün, gücümüz, ümidimiz o qaranlıqda gizlənsin.

Yaradanın içinizdəki surətini çıxarın, "həqq məndədir" deyimini xatırlayın.

İnam, ümid, sevgi, mərhəmət - içinizdə nə varsa onunla birlikdə çıxacaq.

Dünyamız yalnız belə-belə gözəlləşəcək. Qaranlıqlarda boğmayın insanlığı.

# “Paşinyan Moskvanı lap boğaza yığıb"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb






ƏCNƏBİ EKSPERTLƏR

**Danışıqların profanasiyasını təşkil etmək- görünür, belə bir vəzifəni Ermənistanın baş naziri Nikol Paşinyan Moskvaya gedəndə qarşısına qoymuşdu. Həmişə olduğu kimi, danışıqlarda opponentinin üstünlüklərini inadkarlıq və əzm nümayişi ilə məğlub etmək ümidi ilə.**

Birincisi, o, demək olar ki, Azərbaycanla Ermənistan arasında sülhün bağlanması kimi nəinki onun üçün, bütün Cənubi Qafqaz üçün həyati əhəmiyyət kəsb edən bir məsələ ilə bağlı danışıqların pozulmasına nail oldu. Demək olar ki, müəyyən irəliləyişlər olduğu halda. Amma onun niyyəti Ermənistanın baş nazirinin əsas rəqibi Azərbaycan prezidenti İlham Əliyev və görüşün moderatoru Rusiya Federasiyasının prezidenti Vladimir Putin və Aİİ-yə üzv dövlətlərin başçıları tərəfindən dərhal başa düşüldü. O, öz gülünc hücumlarına və ittihamlarına ictimaiyyət qarşısında, bu İttifaqın Şura rəhbərlərinin iclasında başladı. Onun üzündə istehza və hətta nifrətdən başqa heç nə ifadə olunmurdu (Rusiya xəbər kanalları tərəfindən dəfələrlə təkrarlanan bu kadrları hamı gördü). Erməni lider, gözləntilərinin əksinə olaraq, heç kimdən zərrə qədər də rəğbət qazana bilməsə də, özünə rüsvayçılıq gətirdi.

Ermənistan hansı məqsədlər güdür, danışıqlar prosesini növbəti dəfə ictimai demaqogiyaya doğru necə aparır, Paşinyan, prinsipcə, nəyə can atır, davranışının məntiqi nədir? Bu sualların cavabını rusiyalı və qazaxıstanlı siyasi ekspertlər ”Caliber” analitik mərkəzinə şərhlərində izah ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Qazaxlı politoloq, siyasi elmlər namizədi Şarip İşmuhamedovun qeyd etdiyi kimi, belə bir təəssürat yaranır ki, Paşinyanın birbaşa Aİİ sammitində belə davranışı iki səbəblə diktə edilib. ”Birincisi, ola bilsin ki, baş naziri vəziyyətin belə gərginləşməsinə Ermənistan daxilindəki müəyyən qüvvələr, bir növ revanşist qruplar təhrik ediblər. Başqa mümkün səbəb də var- bu cür siyasi ”döyüşləri” ən yüksək səviyyədə təşkil etməklə Paşinyanın özünün reytinqinin ciddi şəkildə aşağı düşməsi. Və bir qayda olaraq, bu onlara yaxşı görünmür. Başqa bir məqam da maraqlıdır: Paşinyanın təhrik etdiyi mənasız debata çəkilmək istəməyən Vladimir Putin bütün görünüşü ilə neytral mövqe nümayiş etdirdi. ”Ermənistan bu cür siyasi şoular təşkil etməklə, əlbəttə ki, danışıqlar prosesini bilərəkdən ləngidir, özünə müəyyən dividendlər qazandırmağa çalışır. Məsələn, ermənilərə Azərbaycanın daxilində, daha yaxşısı beynəlxalq qüvvələrin nəzarəti altında muxtariyyətlə bağlı danışıqlar aparmaq”,- politoloq hesab edir.

İrəvan, Ş.İşmühəmmədovun fikrincə, bunu Qarabağ məsələsinin sülh yolu ilə həllini qeyri-müəyyən müddətə təxirə salmaq, vəziyyəti öz xeyrinə çevirmək, həm də ona görə edir ki, Paşinyanın vəziyyəti həll etmək üçün konkret planı yoxdur.

Qazaxıstanlı politoloq vurğulayır ki, Paşinyan özü də son sammitdə bir daha əmin olduğu kimi, Ermənistan hələ 44 günlük müharibədən əvvəl Putinin və ümumilikdə Rusiyanın dəstəyini itirib.

”Bu arada, sülh yolu ilə nizamlanmada belə bir gecikmə hərbi eskalasiyanın növbəti mərhələsinə gətirib çıxaracaq, belə bir yol sadəcə olaraq mövcud vəziyyətdən yeganə çıxış yolu olacaq. Və Paşinyanın ümumi iclas zamanı açıq hücumlar şəklində hiylələri hadisələrin məhz belə bir dönüşünə səbəb ola bilər. Lakin bu halda Ermənistanı yaxşı heç nə gözləmir, çünki biz onun Silahlı Qüvvələrinin Azərbaycan ordusu ilə müqayisədə vəziyyətini və döyüş qabiliyyətinin dərəcəsini gördük- onlar yumşaq desək, təsiredici deyil”,- politoloq bildirib.

Üstəlik, Ş.İşmuxəmmədov hesab edir ki, Rusiya bu münaqişədə neytral mövqe tutmağa başlayanda vəziyyət artıq dəyişir. Hansı ki, prinsipcə, o, uzun illər Bakı ilə İrəvan arasında əsas vasitəçi kimi fəaliyyət nümayiş etdirməli olub. Yaxın keçmişdə, Qarabağ münaqişəsi zamanı Ermənistanın maraqlarına açıq-aşkar dəstək verilməməsi indiki ssenariyə gətirib çıxardı.

Politoloqun qeyd etdiyi kimi, Paşinyan Ermənistan Silahlı Qüvvələrinin, Ermənistanın özünün siyasi statusunun uduzulan müharibədən sonra dəyişdiyini qəbul etmir.

”Ermənistanın müttəfiqləri və hərbi tərəfdaşları yoxdur, lakin Paşinyan dəyişən vəziyyəti başa düşmür və yeni reallığı qəbul etmir. Bunun lətifəsi odur ki, o, özünü regional lider, Ermənistanı isə regional hegemon təsəvvür edir. Son 20 ildə öz müttəfiqləri və tərəfdaşları ilə həqiqətən regional gücə çevrilən Azərbaycandan fərqli olaraq”,- ekspert deyir. Ş.İşmuxəmmədov gizlətmir, bir çoxları kimi, onun özü də prezident Əliyevin mövqeyinə, davranışına, incəliyinə daha çox hörmət edir.

”Bütün ittihamlara baxmayaraq, o, öz maraqlarını qorumaqda hörmətli və ardıcıl olmağa çalışdı, yaxşılıq istəyən, münaqişəni sülh yolu ilə həll etməyə qadir olan ölkənin nümayəndəsi kimi mövqeyini möhkəmləndirməyə çalışdı. Onun sözləri siyasi cəhətdən Paşinyanın bəyanatlarından qat-qat düzgün idi. Görünür, Ermənistanın baş naziri çıxılmaz vəziyyətdədir və özünü necə aparacağını, suallara necə cavab verəcəyini, mövqeyini necə müdafiə edəcəyini, bu müzakirədə diplomatik uğur üçün kimi öz dairəsinə cəlb edəcəyini bilmir. O, görünür, bütün siyasi nüfuzunu itirir”, - qazaxıstanlı ekspert vurğulayır.

Siyasi elmlər doktoru, Rusiya Federasiyasının 1-ci dərəcəli dövlət müşaviri, rusiyalı politoloq Tatyana Poloskova diqqəti Əliyevlə Paşinyan arasında görüşün cəmi iyirmi dəqiqə çəkdiyinə, lakin Vladimir Putinin buna fikir verdiyinə yönəldir: ”Bu, Qarabağdakı vəziyyətin praktiki həlli üçün proloqdur. Üstəlik, Rusiya Federasiyası prezidentinin sözlərinə görə, İrəvanla Bakı arasında keçilməz manea qalmayıb və baş nazirin müavinləri səviyyəsində növbəti görüşün bir həftədən sonra keçirilməsi nəzərdə tutulub”.

T.Poloskovanın qeyd etdiyi kimi, Əliyevlə Paşinyan arasında Rusiya prezidentinin vasitəçiliyi ilə keçirilən görüşün nəticələri kağız üzərində yazılmayıb, lakin Azərbaycan və Ermənistan başçıları bir-birinin ərazi bütövlüyünü tanıyıblar. Lakin bütün bunlar, dialoqun özünün formatı, onun təbirincə, ”durğun xarakter almağa başlayır, inşaatçıların dili ilə desək, danışıqlar prosesi uzanan tikinti vəziyyətini xatırladır”.

”İndi isə hər şeyə baxmayaraq, bir neçə gün sonra Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin görüşü planlaşdırılır. Amma müzakirəyə yalnız texniki detallar qalsa, bütün bunları artıq ikitərəfli səviyyədə, vasitəçilər cəlb etmədən həll etmək olar. İnandığım kimi, Paşinyan danışıqlarda həddən artıq sarsıldı, amma nəhayət, danışıqlar prosesi fonunda - unutmayaq - Ermənistanın hərbi təxribatları davam edir. Ona görə də şəxsən mən ciddi nəticələr görmürəm və bu, təbii ki, Azərbaycan tərəfinin günahı deyil. Ermənistan nəhayət ki, sərhədlərin demarkasiyası və delimitasiyası istiqamətində addımlar atmalıdır.

Aİ sammitində liderlərin görüşünə gəlincə, Rusiya mediası iqtisadi birlik ölkələrinin bütün rəhbərlərinin ümumi tərkibdə görüşündə baş verənləri atışma kimi səciyyələndirir. Şəxsən mən atışmanı hiss etməsəm də: Paşinyan 44 günlük müharibə bitdikdən sonra sonsuz dəfə verdiyi eyni sualları qeyri-müəyyən şəkildə verməyə çalışdı, onların cavablarını yaxşı bilirdi. Bu dəfə ictimaiyyət üçün bir oyun oldu: dövlətlərin liderləri iştirak edir və bəlkə onlardan biri bədbəxt Paşinyanın müdafiəsinə qalxar və ya dialoqa dissonans gətirər. Amma bu baş vermədi, üstəlik, İlham Əliyev kimi MDBMİ-nin məzunu olan Qazaxıstan prezidenti ümumiyyətlə açıq şəkildə güldü ki, bu da televiziyada göstərildi”,- rusiyalı politoloq qeyd edib.

Onun sözlərinə görə, Paşinyan ”dəhliz”, ”həyət”, ”yol” kimi məfhumlara istinad edərək tamamilə gülünc suallar verib və nəticədə Putinin özünün reaksiyasına səbəb olub və o, Ermənistanın baş nazirinə bunların sırf texniki suallar olduğunu xatırladıb.

”Və Azərbaycan prezidenti, yəqin ki, MDBMİ-də müəllim işlədiyi gənclik illərini ümumiyyətlə xatırlayır və o qədər də ağıllı olmayan tələbəsinə etdiyi kimi sakit və başa düşülən şəkildə ”dəhliz”in necə bir şey olduğunu izah edirdi. Ki, bu, beynəlxalq termindir və yol anlayışından heç bir əsas fərq yoxdur”,- T.Poloskova vurğulayır.

Zəngəzur dəhlizinə gəlincə, ekspertin fikrincə, Paşinyan burada da xırda təxribat təşkil etməyə çalışıb: ”Ay aman, belə çıxır ki, siz Rusiya ilə Zəngəzur məsələsində nəsə razılaşmısınız, amma mənim bundan xəbərim yox idi”.

”Ancaq əgər Paşinyan başqa ölkə ilə münasibətlərin fundamental məsələsinin mahiyyəti barədə nəsə bilmirsə, qoy öz kəşfiyyatına sual versin. Amma burada heç nə gizlədilməyib”,- deyə politoloq təəccüblənir. O, əmindir ki, Azərbaycanın Zəngəzur dəhlizi təşəbbüsü ilə çıxış etməyə tam haqqı var və ”burada heç bir söz-söhbət yoxdur”.

”Ümumiyyətlə, məndə belə bir təəssürat yarandı ki, Rusiya rəhbərliyi Paşinyandan kifayət qədər təngə gəlib, bu, Putinin görüşdəki reaksiyasından aydın göründü. Ermənistanın baş naziri isə indi kritik vəziyyətdədir, onun hərəkətsizliyi onu ifrat həddə çatdırıb: indi o, İrəvana qayıdacaq və o, sülh yolu ilə nizamlanmanı təşviq etmək və sülh müqaviləsi imzalamaq üçün daha nəsə etməlidir. Və nə etməli- o bilmir. Aydındır ki, Ermənistanın özündə də Paşinyanın edə biləcəyi istənilən müsbət dəyişikliyə qarşı çıxan çoxlu revanşist qruplar var. Və nəyisə dəyişmək istəyirsə, bu pusqulardan birtəhər diqqətlə keçməlidir. Amma 44 günlük müharibədən sonra iki ildən artıqdır ki, bir ölkədə bir şey, başqa ölkədə başqa söz deyən, daim çaş-baş qalan, hər zaman nəsə vəd edən, amma yerinə yetirməyən belə bir dövlət başçısı açıq-aşkar çaşqınlıq yaradır”- politoloq vurğulayır. Eyni zamanda, T.Poloskova əmindir ki, ”Azərbaycan tərəfi tamamilə haqlıdır- nizamlanmaya heç bir manea yoxdur”.

”Yalnız texniki suallar qalıb. Putin də orda, sammitdə birbaşa bu mövzuda özünü ifadə etdi - heç bir problem görmür, indi Paşinyan və Bakı bu məsələləri sona qədər həll etsin. Aydındır ki, Ermənistan rəhbərliyi indi öz hakimiyyətini saxlamaq problemindən narahatdır, amma oyun oynamaq yox, hərəkətə keçməyin vaxtı çatıb. Bununla belə, Paşinyan bacardığı kimi hərəkət edir- yöndəmsiz, qeyri-peşəkar. Ona, siyasi nəzakət öyrədilməyib- Azərbaycan və Qazaxıstan prezidentlərindən fərqli olaraq, diplomatik təhsili yoxdur. Buna görə də, bütün bunlar çox gülünc göründü- həm də təkcə Tokayev üçün deyil, mənim üçün də ”deyə- T.Poloskova yekunlaşdırır.

*Tərcümə - Elçin Bayramlı*

## Ələtdə evdən 5500 manatlıq qızıl oğurlanıb



Qaradağda oğurluq olub. DİN-dən SİA-ya verilən məlumata görə, Qaradağ RPİ 11-ci Polis Bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Ələt qəsəbəsindəki evlərin birindən 5500 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri Camal Nurəliyev və Taleh Zairov müəyyən olunaraq saxlanılıblar. Araşdırma aparılır.

# Sahibsiz heyvanlara kim sahib çıxmalıdır?



Ölkəmizin və dünyanın böyük problemlərindən biri də sahibsiz itlərin mövcudluğudur. Biz bu "dostlar"la tez-tez, məhəllədə, parklarda, prospektlərdə qarşılaşırıq. Onları çox vaxt qışda üşüyən, yayda isə istidən tənginəfəs vəziyyətində görürük. Qışda, yayda, soyuqda, istidə, daim bu "dostlar"ımız su, yemək axtarmaq məcburiyyətindədir. Bütün bunlar azmış kimi bəzi "vətəndaşlarımız" bu "dostlar"ımızı incidir, vurur, öz itlərini onlara cumdurur. Əslində xaotik şəhər şəraitinə adaptasiya ola bilməyən, bu aciz "dostlar"ımızın qayğısına qalmaq, ən azından əlimizdən gəldiyi qədər onlar üçün təmiz su, yemək təmin eləmək hər birimizin insani borcudur. Bu "dostlar"ımızın daha yaxşı yaşaması üçün nələr edə bilərik? Dövlət səviyyəsində hansı tədbirlər görülür? Vətəndaşların üzərinə bu məsələdə hansı yüklər düşür? Sahibsiz itlər təhlükəlidirmi?

"My dog academy"nin sahibi, it təlimçisi Anar Cahanbəxş məsələyə belə münasibət bildirib: "Sahibsiz itlər bir çox Avropa ölkəsində mütəmmadi olaraq peyvəndlənirlər. Daha sonra onlar sığınacaqlara yerləşdirilir. Bir müddət orada qaldıqdan sonra heç kim onları sahiblənmirsə onlara evtanaziya tətbiq olunur. Əfsus ki, Azərbaycanda sahibsiz itlərin sayı çoxdur. Həmin itlər tez-tez toplanır, qısırlaşdırılır, peyvəndləri vurulur. Lakin bir çox hallarda yenidən küçəyə buraxılırlar".

Anar Cahanbəxş bildirib ki, bu prosedurlar çox da effektiv deyil. Bu məsələlərlə bağlı daha ciddi işlər görülməlidir. Biz təlimçidən sahibsiz itlərin təhlükəli olub-olmamasını soruşduqda isə o, bildirdi ki, əsasən təkbaşına olan bir küçə iti çox da təhlükəli deyil. Ancaq insanlar tərəfindən vurulmuş, döyülmüş, travmaya məruz qalmış küçə itləri bəzi hallarda təhlükə törədə bilərlər: "Bundan əlavə onların təhlükə qarşısında sığınacaqları bir yerləri olmadığı üçün şimşək, maşın səsi, fişəng və başqa kənar səslərdən çox təsirlənirlər və nəticədə qorxaq olurlar. Qorxaq itlər sürü halında yaşadıqda aqressiv və ofansif ola bilirlər. Xüsusən itlərdən qorxan insanlar üçün sürü halında yaşayan küçə itləri daha təhlükəlidir. Çünki itlər jestlərdən insanın qorxduğunu anlaya bilirlər. İtlərdən qorxan biri hər hansı bir hücuma məruz qaldıqda sabit qalıb, ayaqlarını, əllərini birləşdirib "ağac vəziyyəti"ndə dayanmalıdır".

Gördüyünüz kimi, ironik bir şəkildə biz həm bu heyvanları özümüzə qarşı qıcıqlandırırıq, sonra da onlardan şikayət edirik. Şəxsən mənim hazırda 4 itim var. Hər birinin sosiallaşmasına, insanlara, digər itlərə qarşı mehriban olmasına xüsusən diqqət göstərirəm. İtlərlə şəxsən bu qədər yaxın təmasda olmağım məni küçə itlərini daha yaxşı anlamağa sövq edir. Bir it üçün sahibsiz olmaq və ya sahibindən ayrı qalmaq, yuvasız, ac-susuz olmaq nə deməkdir, çox gözəl başa düşürəm. Bəzən öz itlərimlə küçədən keçəndə uzaqdan bizə baxan küçə itinin baxışlarında hər nə qədər həqiqətdən uzaq olsa da, dərin bir həsrət, kədər hiss edirəm. Maşınların, insanların qabağından quyruğunu və qulaqlarını qısaraq keçən bir it görəndə o məsum canın daha əvvəl nələr yaşadığı gözümün önündə canlanır və bu məni dərindən sarsır. Bəlkə də, inanmazsınız, ancaq bu dünyada ən çox yardım etmək istədiyim, tək-tək hər





birinə kömək etmək istədiyim yeganə canlı itlərdir. Çünki yağışda büzüşüb hasarın dibinə sığınan, günəşin altında ləhləyən, ümidsizcə zibilqablarını eşələyən, asfaltın oyuqlarına yığılan çirk sudan içməyə çalışan bir it mənim üçün dünyanın ən kədərli səhnələrindən birinin baş roludur. Düşünürəm ki, hər bir vətəndaş heç olmasa bir qab "krant" suyunu qaba tökub qapısının yanına qoya bilər. Bu bəlkə də hansısa küçə heyvanının həyatını xilas edə bilər.

Məsələni daha dərindən araşdırmaq üçün "Canlı Aləmin Mühafizəsi Alyans" İctimai Birliyinin sədr əvəzi Arzu Gülmalıyevaya müraciət etdik. Həmin açıqlamanı təqdim edirik: "Əvvəla küçədə heyvanın necə yarandığına baxmaq lazımdır. Bildiyiniz kimi, heyvanların ticarəti, artırılması ölkəmizdə kifayət qədər yayğındır. Çox insan onları oyuncaq kimi alır, sonra baxmağın çətin olduğunu gördükdə küçəyə atırlar. Bu hallarla mübarizə aparmaq lazımdır. Bir çox Avropa ölkəsində bunun üçün müvafiq cərimələr mövcuddur.

Bununla yanaşı, heyvanlara qarşı daha vəhşi hərəkətlərə yol verən insanlar da mövcuddur. Bəziləri onların gözünü çıxardır, quyruğunu kəsir, təcavüz edir və yaxud da öldürür. Bu ağlasığmayan vəhşilikdir. Şəxsən mən evimdə küçədən ağır vəziyyətdə sahibləndiyim üç pişik, bir it saxlayıram. Lakin bu fərdlərin addımları ilə həll olacaq bir məsələ deyil. Burada ciddi təbliğat aparılmalıdır. Əsasən mediada birtərəfli xəbərləri çox görürük. İtlər hücum etdi, itdən xəstəlik keçdi və s. Ancaq heç vaxt bu heyvanları bu vəziyyətə çatdıranlar müqəssir hesab olunmur.

Arzu Gülmalıyeva bildirib ki, heyvanlara qarşı amansız münasibət göstərənlər daha ağır cərimələrə məruz qalmalıdır: "Səhv etmirəmsə, Mahatma Qandinin belə bir sözü var: "Cəmiyyətin rifah səviyyəsi orada yaşayan heyvanların rifah səviyyəsi ilə ölçülür". Bizim ölkəmizdə çox ciddi inkişaf gedir. Lakin insanlarımız heyvanlara qarşı çox amansız münasibətlər göstərir. Küçə itləri bizimlə eyni dünyanı paylaşan canlılardandır. Biz onlarla harmonik şəkildə yaşamağı bacarmalıyıq. Unutmamalıyıq ki, dünya bizim olduğu qədər, onların da evidir. Mən Sumqayıt şəhərində yaşayıram. Tibb bacısı kimi fəaliyyət göstərirəm. Lakin könüllü olaraq bu işə qoşulmuşam. Mənim özüm kimi bu işi təmənnasız görən 15 məsləkdaşım var. Biz 300-ə yaxın iti qısırlaşdırıb əraziyə buraxmışıq. Bundan əlavə hər bir əməkdaşımız öz ərazisində yaşayan küçə itlərinə qulluq edir, onların qayğısına qalır. Bu həm sevgi, həm mərhəmət, həm də təşkilatçılıq tələb edir. Bir çox insanlar düşünür ki, bu işləri dövlət etməlidir. Lakin yanılırlar. Dünyanın istənilən yerində bu məsələnin sadəcə 20 faizini dövlət üzərinə götürür. Sahibsiz heyvanlarla bağlı bir çox məsələ könüllü təşkilatlar tərəfindən həll olunur.

Mən insanlara başa salmaq istəyirəm ki, bu tamamən insanların boynuna düşən vicdani bir borcdur. İnsanlar küçə itlərinə kömək etmirlərsə, su-yemək vermirsə ən azından onlara ziyan da verməməlidir. Unutmayın ki, heyvanlara mərhəmət etməyən heç bir insan, nə insanlara, nə ailəsinə qarşı mərhəmətli ola bilməz. Mən bütün insanları heyvanlara qarşı mərhəmətli olmağa, onları sevməyə çağırıram".

***Fazil Mehdixanlı***

## DİN: 102 "Qaynar xətt"inə müraciət edən azyaşlıların sayı çoxalıb

Son iki ildə Daxili İşlər Nazirliyin "Qaynar xətt"inə müraciət edən azyaşlı uşaqların sayı çoxalıb. SİA xəbər verir ki, bunu DİN-in Mətbuat xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev "Uşaqlar, hüquqlar, qəzalar və çıxış yolları" adlı tədbirdə deyib.




O qeyd edib ki, bu, sevindirici haldır:"Bu, o deməkdir ki, bizim uşaqlar da qanun pozuntularına reaksiyasız qalmırlar. Bu gün təhlükəsizlik məsələsi hər birimizi maraqlandırmalıdır. Hamımız ayıq-sayıq olmalıyıq. Daxili İşlər Nazirliyinin 102 "Qaynar xətt"i 7/24 fəaliyyət göstərir.".

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov**
**küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**